*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının
Elm və Təhsil Nazirliyinin orqanı

11 noyabr 2022-ci il
№44 (9002)

www.muallim.edu.az
muallim@edu.gov.az

# 12 NOYABR Azərbaycan Respublikasının Konstitusiya Günüdür

**Ümummilli lider Heydər Əliyevin 2 fevral 1996-cı ildə keçirilmiş Azərbaycan Respublikası gənclərinin Birinci forumundakı nitqindən**

## Bizim ən böyük nailiyyətimiz müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmək oldu

**Hamımız üçün bir məqsəd var, müstəqil Azərbaycan Respublikası və onun Əsas Qanunu - Konstitusiyası var. Hesab edirəm ki, keçən il bizim ən böyük nailiyyətimiz müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasını qəbul etmək oldu... Konstitusiyada hər bir vətəndaşın hüquqları, azadlıqları öz əksini tapıbdır, eyni zamanda, hər bir vətəndaşın vəzifələri öz əksini tapıbdır. Konstitusiyanın maddələrinin üçdəbir hissəsi respublika vətəndaşlarının, o cümlədən gənclərin hüquq və azadlıqlarına həsr olunub... Konstitusiyanı öyrənmək lazımdır. Konstitusiyanı dərk etmək lazımdır, Konstitusiyanın maddələrini, xüsusən vətəndaşların vəzifələrinə aid olan, vətəndaşların hüquqlarına aid olan maddələrini vətəndaş bilməlidir, bizim gənc vətəndaş bilməlidir və ona riayət etməlidir.**



## BU SAYIMIZDA

### "Daha təhsilli GƏLƏCƏK"



Noyabrın 5-i Azərbaycanın təhsil tarixində növbəti dəfə çox əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, həmin gün Bakı Avropa Liseyində keçirilən "Təhsildə yeni çağırışlar" III Beynəlxalq Forumu dünya şöhrətli spikerlərin çağırışları, əhatəliliyi, iştirakçı sayı, mötəbərliliyi, gündəmə çıxardığı məsələlərin aktuallığı baxımından çox yüksək qiymətləndirilə bilər. Elm və təhsil naziri Emin Əmrullayev, İƏİT təmsilçiləri, 20-ə yaxın ölkənin nümayəndələri, ali məktəblərin rektorları, professor, elm və təhsil xadimləri, müəllimlər, məktəb direktorları və digər qonaqların iştirak etdiyi forumun əsas məqsədi təhsildə yeni çağırışları müzakirə etmək, müasir dövrün təhsil tələblərini nəzərdən keçirmək olub.

səh.2

### Asiyanın ən güclü universitetləri



Böyük Britaniyanın "QS World University Rankings" nəşri Asiyanın ən güclü ali təhsil müəssisələrinin 2023-cü il üzrə reytinqini (QS Asia University Rankings) açıqlayıb. Asiyanın 760 universitetinin yer aldığı reytinq əvvəlki tədqiqatlardan genişliyi ilə fərqlənir və ən böyük sıralama hesab olunur. Pekin Universiteti bu il birinci, ötən ilin lideri olan Sinqapur Milli Universiteti isə ikinci yeri tutur. İlk onluğun qalan hissəsi Şərqi və Cənub-Şərqi Asiyadan, o cümlədən Malayziyadan, materik Çindən və Cənubi Koreyadan müxtəlif ali məktəblərlə əhatə olunmuşdur.

səh.5

### Qarabağda tarix yazan şəhid təhsil işçisi



27 sentyabr - 10 noyabr 2020- ci il... Azərbaycan tarixinin ən şanlı səhifəsi. Şəhidlik zirvəsinə fəxarətlə ucalanlar Azərbaycanın qəhrəmanlıq dastanına döndülər. Onlar Azərbaycanın ərazi bütövlüyü uğrunda misilsiz şücaət və qəhrəmanlıqları ilə özlərinə əbədiyaşarlıq və ölümsüzlük qazandırdılar. 44 günlük qanlı savaşda Rəşadətli Azərbaycan Ordusu mənfur düşmənin üstünə şığıdı bir aslan kimi. Şimşək kimi çaxdı göyün ənginliyində igidlərimizin nifrət dolu baxışı. Sel kimi coşub daşdı sinəsi vətən eşqi ilə döyünən minlərlə igid oğullarımızın nifrəti, qəzəbi. Dəmir yumruq kimi birləşib illərin hiddətini, intiqamını əldə silah edib hücum etdilər yağıların üstünə.

səh.6

# Dövlət Proqramı çərçivəsində 2023-2024-cü tədris ili üzrə xarici ali təhsil müəssisələrinin SİYAHISI

Elm və Təhsil Nazirliyi tərəfindən "2022-2026-cı illərdə gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair Dövlət Proqramı" çərçivəsində 2023-2024-cü tədris ili ilə əlaqədar prioritet ixtisas sahələrinə uyğun bakalavriat və magistratura təhsil proqramlarının nüfuzlu xarici ali təhsil müəssisələri üzrə ilkin siyahısı müəyyən edilib.

⇨Ardı səh.4

## 15 prioritet ixtisas sahəsi üzrə 28 ölkənin 186 ali təhsil müəssisəsində tədris olunan 575 bakalavriat və 3551 magistratura olmaqla, ümumilikdə 4126 təhsil proqramını əhatə edir

# "Daha təhsilli

## "Təhsildə Yeni Çağırışlar" III Beynəlxalq Forumu keçirilib

Noyabrın 5-i Azərbaycanın təhsil tarixində növbəti dəfə çox əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, həmin gün Bakı Avropa Liseyində keçirilən "Təhsildə yeni çağırışlar" III Beynəlxalq Forumu dünya şöhrətli spikerlərin çağırışları, əhatəliliyi, iştirakçı sayı, mötəbərliliyi, gündəmə çıxardığı məsələlərin aktuallığı baxımından çox yüksək qiymətləndirilə bilər. Elm və təhsil naziri Emin Əmrullayev, İƏİT təmsilçiləri, 20-ə yaxın ölkənin nümayəndələri, ali məktəblərin rektorları, professor, elm və təhsil xadimləri, müəllimlər, məktəb direktorları və digər qonaqların iştirak etdiyi forumun əsas məqsədi təhsildə yeni çağırışları müzakirə etmək, müasir dövrün təhsil tələblərini nəzərdən keçirmək olub. Qeyd edək ki, "Təhsildə yeni çağırışlar" III Beynəlxalq Forumu Elm və Təhsil Nazirliyi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (İƏİT), Təhsilin İnkişafı Fondunun tərəfdaşlığı, "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platforması və Təhsil İnstitutunun təşkilatçılığı ilə hibrid formatda keçirilib. Forumun informasiya tərəfdaşı Təhsil TV, "Azərbaycan müəllimi" qəzeti və "Azərbaycan məktəbi" jurnalı olub. Forum YouTube üzərindən Təhsil TV vasitəsilə canlı yayımlanıb.





### "Beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak bizi qlobal təhsil sisteminin bir üzvünə çevirir"

Forumda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının elm və təhsil naziri Emin Əmrullayev tədbirin əhəmiyyətini yüksək qiymətləndirərək təşkilatçılara və spikerlərə təşəkkür edib, müzakirə ediləcək məsələlərin Azərbaycan təhsilinə böyük töhfə olacağını vurğulayıb.

Beynəlxalq qiymətləndirmə tədqiqatlarından danışan nazir bildirib ki, bu tədqiqatlarda iştirak bizi qlobal təhsil sisteminin bir üzvünə çevirir, eyni zamanda müxtəlif ölkələrdən olan həmkarlarla fikir mübadiləsi aparmaq imkanı yaradır. Emin Əmrullayev diqqətə çatdırıb ki, son bir neçə il ərzində PISA beynəlxalq qiymətləndirmə tədqiqatı ölkədə təhsilin inkişafının əsas hədəflərindən biri kimi müəyyən olunub. Nazirin sözlərinə görə, PISA bizə yalnız rəqəm deyil, həm də kifayət qədər ciddi elm və dəlillər verir.

Elm və təhsil naziri çıxışında onu da qeyd edib ki, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində təhsilin ayrıca bölmə kimi yer alması, hədəflərin müəyyən olunması təhsil işçiləri qarşısında konkret məqsədlər qoyur. Emin Əmrullayev çıxışının sonunda forumun işinə uğurlar arzulayıb.

Daha sonra iştirakçıları salamlayan "T-Network" təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının rəhbəri və beynəlxalq forumun moderatoru Cəfər Mənsimi forumun məqsədi və vəzifələri barədə məlumat verib. Bildirilib ki, forum Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinin "XXI əsrin tələblərinə uyğun təhsil" istiqamətini, İƏİT-in "Təhsil və bacarıqların gələcəyi - 2030" sənədini, BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərindən biri olan keyfiyyətli təhsil məqsədini rəhbər tutur. "Daha təhsilli gələcək" şüarı altında baş tutan forum rəqəmsal dünyada öyrənmək və qlobal səriştələr mövzularını əhatə edib.

Forumun müzakirə çərçivəsində "Rəqəmsal dünyada öyrənmə necə təşkil olunmalıdır?", "Təhsildə yeni çağırışlar təhsilin məqsəd və vəzifələrini hansı istiqamətdə dəyişir?", "Məktəb həyatından həyat məktəbinə keçid etmək üçün hansı yeni çağırışlara cavab vermək lazımdır?", "Gələcəyə necə insan hazırlamalıyıq?" sualları əsas yer alıb. C.Mənsimi forumun 8 Noyabr Zəfər Günü ərəfəsində keçirilməsindən şərəf hissi duyduğunu qeyd edərək 1-4 noyabrda MDB məkanında ilk dəfə olaraq PISA Proqramının Azərbaycanda idarə heyətinin yaradılmasına dair keçirilmiş iclası tarixi hadisə adlandırıb.



### "Biz qlobal icma olaraq sülh, davamlılıq və dayanıqlılıq, ədalət üçün çalışmalıyıq"

Foruma onlayn qatılan UNESCO-nun Baş direktorunun təhsil üzrə müavini Stefania Giannini çıxış edərək forumun əhəmiyyətini yüksək qiymətləndirib. Stefania Giannini bildirib ki, təhsil sosial xidmətdir və rəqəmsal inqilabdan təhsil üçün istifadə etmək əsas hədəf olmalıdır. O, əlavə edib ki, auditoriyada, sinif otağında təcrübəli, bacarıqlı müəllimlər təhsil sisteminin idarəçisi kimi əsas rol oynamalıdırlar. UNESCO-nun Baş direktorunun təhsil üzrə müavini diqqətə çatdırıb ki, dünyada 144 milyon uşaq və gənc hələ də məktəbdən kənardadır və 10 yaşına qədər 10 uşaqdan 6-sı ən sadə hekayələri belə oxumaq iqtidarında deyil. Bu baxımdan, xanım Giannini bütün öyrənənlər üçün mütləq olaraq öyrənmə mühitinin təmin olunmasının, pedaqoqların isə təlim vasitəsilə daha da püxtələşməsinin vacibliyini bildirib.

Stefania Giannini qeyd edib ki, gələcəyin çağırışları baxımından rəqəmsal texnologiyadan bir sıra məqsədlər üçün istifadə etmək olar və hər bir halda müstəsna bacarıqları olan müəllimlərə ehtiyac vardır. Giannini deyib: "Təhsil sırf nazirlik və hansısa dairələrin çərçivəsində deyil, daha da geniş hüdudlara çıxır. Biz qlobal icma olaraq sülh, davamlılıq və dayanıqlılıq, həmçinin ədalət üçün çalışmalıyıq".

Stefania Giannini Azərbaycan hökuməti tərəfindən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədinə təhsil üzrə bölmənin daxil edilməsini və bu sahədə həyata keçirilən işləri yüksək qiymətləndirib.

### "Məktəb tək şagirdlər üçün deyil, hər kəs üçün öyrənmə məkanı olmalıdır"

Daha sonra forumun əsas məruzəçisi, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Baş katibinin Təhsil siyasəti üzrə xüsusi müşaviri, Təhsil və bacarıqlar üzrə direktoru, Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının (PISA) yaradıcısı və direktoru Andreas Şleyxer "Öyrənənləri gələcəyə necə hazırlayaq?" mövzusunda geniş təqdimatla çıxış edib.

Andreas Şleyxer qeyd edib ki, təhsil bizdən fərqli olanları dinləmək, onlardan da öyrənmək imkanıdır. Spiker qonaq deyib: "Rəqəmsal dünyada bacarıqlar, inkişaf baxımından biz yetərincə bilik verə bilmirik. Biz gəncləri öncədən hazırlanmış kontentin passiv istehlakçısına çevirmişik. Apardığımız tədqiqatlara əsasən 15 yaşlı şagirdlərin 10 yaşlılardan daha az kreativ olduqlarını aşkarlamışıq. Biz düşünürük ki, kreativlik şəxsi keyfiyyətdir. Lakin bilmək lazımdır ki, kreativlik məktəb kurikulumunun bir hissəsi olmalıdır. Uşaqları məktəblərə verdikdən sonra biz onların bədahətən gələn uşaqlıq qabiliyyətinin, kreativlik həvəsinin qarşısını alırıq, onlara bunu unutdururuq".

A.Şleyxerin fikrincə, texnologiya getdikcə daha da demokratiyalaşdırılır, insanları birləşdirir, burada hər kəsin iştirakı təmin olunur. Həmçinin texnologiya konsentrasiyanı artırır, yəni uğur qazananlar daha da məşhurlaşır. Eyni zamanda texnologiya eyniləşməyə gətirir, fərdi cəhətdən fərqlənmək daha da çətinləşir. PISA-nın yaradıcısı vurğulayıb ki, şagirdlər texnologiyanın məntiqini başa düşməli, alqoritmləri anlamalıdırlar. İnsanların texnologiyanın önündə getməsi üçün Şleyxer təhsil sistemini tərəqqi etməyi, avtomatlaşdırma riskinə qarşı ən yaxşı yol olaraq insanların məhz təhsil almasını, maariflənməsini tövsiyə edib. A.Şleyxer müəllimləri tədris etməklə yanaşı, şagirdlərin kimliyini başa düşməyə, şagirdlərin həyat səyahətində onlara yoldaş olmağa səsləyib.

Hazırda əmək bazarında qütbləşmə olduğunu qeyd edən məruzəçi bildirib ki, düzgün bacarıqlara sahib olanlar daha da zənginləşir, sahib olmayanlar fürsətlərdən məhrum olurlar. O, bunu ən böyük risklərdən biri adlandıraraq təhsilin bərabər olmamasının deyil, onun fəsadlarının daha acınacaqlı ola biləcəyini vurğulayıb. A.Şleyxer əsas səbəbin insanların bacarıqlarının daha az olmasından irəli gəldiyini deyib: "İnsanlar öz kreativ bacarıqlarına investisiya edirlər və kifayət qədər uğurlu yoldadırlar. İncəsənət ekstrakurikulum fəaliyyəti deyil, kurikulum mərkəzində olan bir dissiplin olmalıdır. İnnovasiyalar buradan gəlir və buradan qidalanır. Məktəblər rəqəmsal transformasiyaya qədəm qoyublar. Biz texnologiyanı inteqrasiya edib təhsilin gücü ilə birləşdirə bilərik".

### Andreas Şleyxer

Rəqəmsal dünyada bacarıqlar, inkişaf baxımından biz yetərincə bilik verə bilmirik. Biz gəncləri öncədən hazırlanmış kontentin passiv istehlakçısına çevirmişik. Apardığımız tədqiqatlara əsasən 15 yaşlı şagirdlərin 10 yaşlılardan daha az kreativ olduqlarını aşkarlamışıq. Biz düşünürük ki, kreativlik şəxsi keyfiyyətdir. Lakin bilmək lazımdır ki, kreativlik məktəb kurikulumunun bir hissəsi olmalıdır. Uşaqları məktəblərə verdikdən sonra biz onların bədahətən gələn uşaqlıq qabiliyyətinin, kreativlik həvəsinin qarşısını alırıq, onlara bunu unutdururuq.

İnsanlar öz kreativ bacarıqlarına investisiya edirlər və kifayət qədər uğurlu yoldadırlar. İncəsənət ekstrakurikulum fəaliyyəti deyil, kurikulum mərkəzində olan bir dissiplin olmalıdır. İnnovasiyalar buradan gəlir və buradan qidalanır. Məktəblər rəqəmsal transformasiyaya qədəm qoyublar. Biz texnologiyanı inteqrasiya edib təhsilin gücü ilə birləşdirə bilərik.

Həqiqi çağırış daha dərindən öyrətmək, təhlil etmək, düşünmək bacarıqlarını aşılamaqdan, fənlərarası düşünmə qabiliyyətini inkişaf etdirməkdən ibarətdir. Dəyərlərin tapılmasında, düzgün istiqamətin müəyyən olunmasında təhsilin çox böyük rolu vardır. İnnovativ öyrənmə şəraitində bu missiyada müəllimlərə necə dəstək olacağımız barədə düşünməliyik ki, müəllimlər bütün fəaliyyəti boyu öz üzərində işləsinlər, ixtisas artırsınlar. Məktəb tək şagirdlər üçün deyil, hər kəs üçün öyrənmə məkanı olmalıdır.

# GƏLƏCƏK"

A.Şleyxer onu da vurğulayıb ki, texnologiya müəllimlər arasında əməkdaşlıq baxımından da olduqca faydalıdır. Müəllimlər tək texnologiyanın istifadəçisi kimi qalmamalı, həmçinin onun tərtib olunmasında, dizaynında da iştirak etməlidirlər. A.Şleyxerin sözlərinə görə, Çin, Sinqapur, Koreya kimi ölkələrin şagirdlərinin 3/2-si rəqəmsal dünyada faktı rəydən ayıra, texnologiyadan düzgün istifadə edə bilir, digər ölkələrin şagirdlərinin böyük əksəriyyəti isə buna hazır deyil. Andreas Şleyxer deyib: "Rəqəmsal texnologiya rəqəmsal vətəndaşlıq tələb edir və biz buna daha çox sərmayə ayırmalıyıq ki, gənclərimiz sabahın texnoloji məhsullarının yaradıcıları olsunlar. Təhsil ictimai məhsul olaraq bütün cəmiyyətin maraqlarına, mənafeyinə cavab verməlidir".

PISA yaradıcısı şagird və tələbələrdə sosial, emosional, koqnitiv fikir və bacarıqları inkişaf etdirməyə ehtiyac duyulduğunu qeyd edib və bunu zamanımızın çağırışı adlandırıb. Artıq hər şeyi bilməyin kifayət etmədiyini bildirən qonaq müəllim və şagirdləri dissiplinar bilikləri öyrənməklə kifayətlənməməyə, alim kimi düşünməyə, elmi cəhətdən araşdırma tələb edən suallar verməyə çağırıb və söyləyib ki, müasir dünya sahib olduğun bilikdən düzgün istifadə etmək, onu düzgün şəkildə tətbiq etməkdir. Tədqiqatçı təhsil tarixində buraxılan ən böyük səhvlərdən birinin qiymətləndirmə ilə təhsilin ayrılmasında olduğunu bildirib, illər boyu çox süni qiymətləndirmə aparıldığını dilə gətirib.






# "Təhsildə Yeni Çağırışlar" III Beynəlxalq Forumu keçirilib

"Həqiqi çağırış daha dərindən öyrətmək, təhlil etmək, düşünmək bacarıqlarını aşılamaqdan, fənlərarası düşünmə qabiliyyətini inkişaf etdirməkdən ibarətdir. Dəyərlərin tapılmasında, düzgün istiqamətin müəyyən olunmasında təhsilin çox böyük rolu vardır. İnnovativ öyrənmə şəraitində bu missiyada müəllimlərə necə dəstək olacağımız barədə düşünməliyik ki, müəllimlər bütün fəaliyyəti boyu öz üzərində işləsinlər, ixtisas artırsınlar. Məktəb tək şagirdlər üçün deyil, hər kəs üçün öyrənmə məkanı olmalıdır" - fikirləri ilə Andreas Şleyxer əhatəli təqdimatını başa vurub.

**"Süni zəka və maşın öyrənməsi bəşəriyyətin məqsədlərinə xidmət etməlidir"**

Beynəlxalq Forumda Estoniya Təhsil və Tədqiqat Nazirliyinin Ümumtəhsil şöbəsinin məsləhətçisi, ölkənin PISA üzrə koordinatoru Maye Kitsinq "Gələcəyi bu gün yaradırıq: Estoniyada təhsilin keyfiyyətini artırmaq üçün hazırkı qərarlar və planlar" mövzusunda təqdimatla çıxış edib. Estoniya təcrübəsini bölüşən qonaq son 30 il ərzində ölkədə üç yanaşma metodundan istfadə barədə məlumat verib. Bunlar bütün sinfə yanaşma, qruplara bölünmə yanaşması, 2014-cü ildən isə həyat boyu yanaşma metoduna keçid və fərdi şəkildə öyrənməni dəstəkləyən yanaşma tərzinin tətbiq edilməsi olub.

Xanım Kitsinq COVID-19 pandemiyasından sonra artıq hər kəsin rəqəmsal alətlər yaratmalı, müəllim və şagirdlərdə rəqəmsal bacarıqları artırmalı olduğunu başa düşdüyünü deyib. O bildirib ki, Estoniyada bu məsələ artıq təhsilin ayrılmaz hissəsinə çevrilib və ölkənin bütün məktəblərində texnoloji sahədə proqramlar mövcuddur.

Maye Kitsinq qeyd edib: "Süni zəka və maşın öyrənməsi kimi digər yeniliklər bəşəriyyətin məqsədlərinə xidmət etməlidir. 1996-cı ildən bəri biz nəticəəsaslı kurikulum seçmişik. Bu kurikulum ümumi səriştələri (öyrənmə, dəyərlər) və sonrakı törəmə səriştələri özündə ehtiva edir". Estoniyalı məruzəçi ölkəsindəki məktəblərin yüksək səviyyədə müstəqilliyə sahib olduğunu diqqətə çatdırıb.

Kurikulumdan kənar fəaliyyətlərə yönəlmiş istiqamət haqqında da məlumat verən Kitsinq burada məqsədin rəsmi və qeyri-rəsmi təhsilə inteqrasiya edilməsi olduğunu bildirib. Bəzi kurikulum dəyişikliklərinin məktəb həyatının həyat məktəbinə çevrilməsinə yönəlməsinə diqqət çəkərək düşünmə bacarıqlarının formalaşmasına, fərdi, kreativ bacarıqların inkişaf etdirilməsinə önəm verdiklərini söyləyib. Xüsusilə rəqəmsal və media bacarıqlarının olması, resursların düzgün şəkildə təqdim edilməsi və hər bir kəsə ehtiyac duyduğu öyrənmə bacarıqlarının verilməsinin vacibliyini önə çəkib.




Rəqəmsal aləmin gerçək dünyanın ayrılmaz hissəsi olduğunu nəzərə çatdıran xanım Kitsinq növbəti nəslin bundan düzgün istifadə edə bilməsində, eləcə də bəşəriyyətin rifahı üçün düzgün faydalanmasında bugünkü nəslin məsuliyyət daşıdığını vurğulayıb: "Biz şagird və tələbələri daha da gücləndirməliyik ki, onlar gələcək dünyamızı daha yaxşı formalaşdıra bilsinlər".

**"Rəqəmsal dünyada müəllimlər əvvəlkindən daha əhəmiyyətli olublar"**

Portuqaliya Təhsilinin Qiymətləndirilməsi İnstitutunun İdarə Heyətinin sədri, PISA İdarə Heyətinin Portuqaliyadakı təmsilçisi Luis Pereira dos Santos "Təhsildə rəqəmsallaşma yekun həldirmi?" sualı ətrafında təqdimatla çıxış edib. Qonaq spiker Portuqaliyada milli qiymətləndirmə sisteminin yaradılması, ölkənin beynəlxalq qiymətləndirmə proqramlarına qoşulması və müxtəlif illərdə şagirdlərinin göstərdiyi nəticələr, ölkə təhsilinin rəqəmsallaşdırılması, 2025-ci ilədək Portuqaliyada bütün imtahanların kompüter vasitəsilə keçirilməsinin nəzərdə tutulması barədə məlumat verib. Luis Pereira dos Santos bildirib ki, rəqəmsal dünyada müəllimlər əvvəlkindən daha əhəmiyyətli olublar. Spikerin fikrincə, rəqəmsal transformasiya sırf ənənəvi metodologiyanı əvəz etməklə bitmir, rəqəmsal texnologiya təhsilin inkişaf etdirilməsi və təbliğ olunmasında həqiqi bir alət olmalıdır.

Forumda daha sonra Zoom vasitəsilə İƏİT-in baş analitiki, Təhsil Tədqiqatları və İnnovasiyalar Mərkəzinin direktor müavini Stefan Vinsen Lankren "Rəqəmsal dünyada bacarıq və təhsil: hazırlıq", PISA-nın baş analitiki Maryo Piaçentini "Rəqəmsal dünyada öyrənməni təkmilləşdirmək üçün qiymətləndirmədən istifadə", ABŞ Milli Təhsil və İqtisadiyyat Mərkəzinin Baş tədqiqat üzrə Direktoru Tresi Börns "Gələcəyin məktəbi necə olmalıdır?", İƏİT-nin Təhsil və Bacarıqlar şöbəsinin Təhsil Tədqiqatları və İnnovasiyalar Mərkəzində analitik Mark Fuster "Dünya dəyişir: təhsili formalaşdıran qlobal trendlər" mövzularında maraqlı təqdimatlarla çıxış ediblər.

Forum zamanı Gənclərin Respublika Bədii Yaradıcılıq Evinin şagirdləri Allahşükür Nəbiyev, Elçin Bağırov, Yunis İbrahimlinin milli musiqi ifasının fonunda Həzrət Məmmədrzayev kubik-rubikdən hazırladığı təhsilin ulduzunu əks etdirən kompozisiya təqdim edib.- Yekunda Elm və Təhsil Nazirliyinin nəzdində 3 nömrəli Uşaq və Gənclər İnkişaf Mərkəzinin şagirdlərinin ifasında Zəfər Gününə həsr edilmiş rəqs nümayiş etdirilib.

## Azərbaycançılıq ideyasını təbliğ edən "Yeni çağırışlar"

Məlumat üçün vurğulayaq ki, Elm və Təhsil Nazirliyinin "Facebook" səhifəsindən 2021-ci ilin yanvar ayından Cəfər Mənsiminin təqdimatında təhsil tarixində özünəməxsusluğu ilə seçilən "Yeni çağırışlar" adlı müzakirə proqramı yayımlanır. Bu günə qədər proqramda Nobel Sülh mükafatçısı, professor Məhəmməd Yunus, dünyanın ən zəngin ikinci adamı İlon Maskın anası, yazıçı, dietoloq və model Mey Mask, dünyaca məşhur "Khan Academy"nin qurucusu və CEO-su Sal Khan, finlandiyalı professor Pasi Sahlberg, harvardlı alim, Harvarddakı Dəyişiklik üzrə liderlik qrupunun rəhbəri Toni Vagner, tanınmış təhsil tədqiqatçısı və yazıçı Dr. Özgür Bolat, "HundrED" qlobal təhsil təşkilatının yaradıcısı və rəhbəri, sahibkar, kreativ direktor və yazıçı Saku Tuominen, Türkiyə Təhsil Dərnəyinin prezidenti Səlcuq Pəhlivanoğlu, "edX"in yaradıcısı Anat Aqarval, Türkiyənin ən tanınmış yazıçılarından biri, İzgören Akademiyasının qurucusu Ahmet Şerif İzgören, tanınmış yazıçı, psixoloq, Türkiyə və İtaliyada bestseller müəllifi Azra Kohen, Melburn Universitetinin fəxri professoru, Avstraliya Tədris və Məktəb Liderləri İnstitutunun direktoru Con Hətti, beynəlxalq bestsellerlər müəllifi, yazıçı və yaradıcı düşüncə üzrə mütəxəssis Rod Cadkins, dünya şöhrətli professor, "marketinqin atası" Filip Kotler, Nanyanq Texnologiya Universitetinin nəzdində fəaliyyət göstərən Sinqapur Milli İnstitutunun direktoru, tanınmış professor Kristin Goh, "Nyu York Tayms" bestseller müəllifi, "Yaradıcı məktəblər"in həmmüəllifi, redaktor və naşir Lu Aronika,Toronto Universitetinin fəxri professoru, "Dərin öyrənmə üçün yeni pedaqogika" Beynəlxalq Təşəbbüsün Qlobal Liderlik üzrə direktoru, yazıçı və təhsil tədqiqatçısı Maykl Fullan, TIMSS və PIRLS Beynəlxalq Təhsil Mərkəzinin icraçı direktoru, təhsildə qiymətləndirmə üzrə dünyaşöhrətli professor İna Mullis, Harvard Universitetinin tarixində ən çox tələbəsi olan kursun müəllimi, Xoşbəxtlik Araşdırmaları Akademiyasının həmtəsisçisi və baş direktoru Tal Ben Shahar, Harvard Universitetinin professoru, Qlobal Təhsil İnnovasiyaları Təşəbbüsünün direktoru Fernando Reimers, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının Baş katibinin təhsil siyasəti üzrə xüsusi müşaviri, Təhsil və bacarıqlar üzrə direktoru Andreas Şleyxer və digərləri qonaq olublar.

Yeni çağırışların müzakirə edildiyi proqramda həm də Azərbaycançılıq ideyası qonaqlara təqdim edilir, ölkəmiz təbliğ olunur. Məsələn, qlobal miqyasda özünü təsdiqləmiş qonaqlara yaradıcı formada təqdim edilən Şuşa Realnı məktəbi, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi, Hüseyn Cavidin "Gülbahar"ı, NASA tərəfindən kosmosa göndərilən qızıl plastinkada yer alan Kamil Cəlilovun balaban ilə çaldığı "Çahargah ahəngi" kompozisiyası, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"si, doğma Qarabağımızın simvolu Xarı bülbül, aparıcı Cəfər Mənsiminin milli libasda qonaqları salamlaması və s. bunun bariz nümunəsidir.

**Lamiyə ƏLİMƏRDANOVA**

# Ticarət Palatasının üzvləri ilə görüş



Elm və təhsil naziri Emin Əmrullayev Böyük Britaniyanın Azərbaycandakı Ticarət Palatası üzvlərinin görüşündə iştirak edib.

Görüş zamanı nazir ölkəmizdə təhsil sisteminin qarşısında duran çağırışlar, həyata keçirilən layihə və islahatlar, gələcək hədəflər barədə çıxış edib, palata üzvləri olan şirkət təmsilçilərinin suallarını cavablandırıb.

Emin Əmrullayev qeyd edib ki, PISA, PIRLS və TIMSS kimi beynəlxalq qiymətləndirmələrdə ölkə üzrə göstəricilərimiz əvvəlki dövrlə müqayisədə yaxşılaşsa da, qarşıda görülməli işlər çoxdur.

Ali təhsil sahəsində həyata keçirilən layihələr və dövlət proqramları barədə də məlumat verən nazir bildirib ki, bu sahədə inkişafı təmin etmək üçün ali məktəblərin sənaye ilə əlaqələrinin təmin edilməsi vacib şərtdir.

Emin Əmrullayev həmçinin peşə təhsili müəssisələrinin yenidən qurulması və proqramların yenilənməsi ilə bağlı iştirakçıları məlumatlandırıb.

# Bakıda “IT Academy”nin rəsmi açılış mərasimi keçirilib

Noyabrın 5-də Elm və Təhsil və İqtisadiyyat nazirliklərinin birgə dəstəyi ilə “IT Academy”nin rəsmi açılış mərasimi keçirilib.




Tədbirdə müvafiq hökumət qurumlarının nümayəndələri, “Alqoritmika” beynəlxalq proqramlaşdırma və riyaziyyat məktəbinin baş direktoru Andrey Lobanov, həmçinin “IT Academy”nin tərəfdaşları olan “Baku Steel Company”, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nümayəndələri salamlama nitqi ilə çıxış ediblər.

Elm və təhsil nazirinin müavini Muxtar Məmmədov layihəyə marağın böyük olduğunu qeyd edib, “IT Academy”nin texnoloji inkişafa töhfə verəcəyini vurğulayıb. Nazir müavini 2017-ci ildən ümumi təhsil müəssisələrində həyata keçirilən “Rəqəmsal bacarıqlar” layihəsi barədə də məlumat verib.

İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov bildirib ki, hazırda dünya iqtisadiyyatı yeni imkanlar vəd edən rəqəmsallaşma prosesindədir. Buna görə də iqtisadiyyatın rəqəmsallaşması uzunmüddətli məqsəd kimi qarşıya qoyulub. Yeni texnologiyaların davamlı tətbiqi və rəqabətqabiliyyətli insan kapitalı, dayanıqlı iqtisadiyyatın inkişafı Azərbaycanın da prioritetləri sırasındadır. Bu baxımdan Azərbaycanda rəqəmsal iqtisadiyyatın inkişafı üçün müvafiq addımlar atılır.

“Alqoritmika” beynəlxalq proqramlaşdırma və riyaziyyat məktəbinin baş direktoru Andrey Lobanov informasiya texnologiyaları üzrə mütəxəssislərin hazırlanmasının əhəmiyyətindən və “IT Academy”nin tədris prosesində tətbiq etdiyi metodlardan danışıb.

Tədbirdə qabaqcıl mütəxəssislər müvafiq sahə ilə bağlı öz bilik və təcrübələrini bölüşüb, İT-nin inkişaf perspektivləri barədə müzakirələr aparılıb.

Sonra “IT Academy” kurslarının təqdimatı keçirilib və tədbir iştirakçılarına bu mövzuda ətraflı məlumat verilib.

Kurslar haqqında ətraflı məlumat “IT Academy”nin rəsmi saytından, sosial şəbəkə səhifələrindən və ya +994 12 310 15 69 nömrəsinə zəng etməklə əldə edilə bilər.

Qeyd edək ki, “IT Academy” layihəsi Elm və Təhsil Nazirliyi, İqtisadiyyat Nazirliyi və “Alqoritmika” beynəlxalq riyaziyyat və proqramlaşdırma məktəbinin birgə əməkdaşlığı ilə həyata keçirilir.

# Dövlət Proqramı çərçivəsində 2023-2024-cü tədris ili üzrə xarici ali təhsil müəssisələrinin SİYAHISI

## 15 prioritet ixtisas sahəsi üzrə 28 ölkənin 186 ali təhsil müəssisəsində tədris olunan 575 bakalavriat və 3551 magistratura olmaqla, ümumilikdə 4126 təhsil proqramını əhatə edir



Əvvəli səh.1

Siyahı ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı”nın müvafiq bəndinə uyğun olaraq razılaşdırılıb.

Dövlət Proqramı çərçivəsində xarici ali təhsil müəssisələrində təhsil yerlərinin ən azı 80 faizinin ali təhsilin magistratura səviyyəsini əhatə edəcəyi də nəzərə alınaraq, müvafiq siyahı 15 prioritet ixtisas sahəsi (informasiya texnologiyaları, mühəndislik, statistika və verilənlərin təhlili, fundamental və tətbiqi elmlər, ictimai səhiyyə, təhsil, ətraf mühit, aviasiya və kosmos, dövlət idarəetməsi, nəqliyyat və logistika, energetika, iqtisadiyyat, maliyyə, arxitektura və dizayn, kənd təsərrüfatı) üzrə dünyanın 28 ölkəsinin 186 nüfuzlu ali təhsil müəssisələrində tədris olunan 575 bakalavriat və 3551 magistratura olmaqla, ümumilikdə 4126 təhsil proqramını əhatə edir.

Müvafiq siyahıda bakalavriat təhsil səviyyəsi üzrə yer alan ümumilikdə 575 proqramın 33 faizini fundamental və tətbiqi elmlər, 22 faizini mühəndislik, 20 faizini isə informasiya texnologiyaları təşkil edir. Magistratura təhsil səviyyəsi üzrə isə 3551 proqram arasında fundamental və tətbiqi elmlər (24%), mühəndislik (19%), informasiya texnologiyaları (12%) və statistika və verilənlərin təhlili (10%) üstünlük təşkil edir.

Qeyd edək ki, sözügedən siyahıda bakalavriat təhsil səviyyəsi üzrə informasiya texnologiyaları, mühəndislik, fundamental və tətbiqi elmlər, energetika, aviasiya və kosmos, arxitektura və dizayn, iqtisadiyyat və kənd təsərrüfatı ixtisas sahələri üzrə proqramlar yer alır.

Magistratura təhsil səviyyəsində isə Dövlət Proqramının bütün prioritet ixtisas sahələrinə aid proqramlar üzrə təhsil almaq mümkündür.

Müvafiq siyahı ilə keçiddən *(https://edu.gov.az/ uploads/news/PBDlist_vsbvise_B_575_M-3551%3D4126.pdf)* tanış olmaq mümkündür.

Siyahıda əks olunan xarici ali təhsil müəssisələrinin bakalavriat və magistratura proqramları üzrə qəbul sənədlərini əldə etmiş şəxslər Dövlət Proqramı çərçivəsində xaricdə təhsil üçün keçiriləcək növbəti müsabiqədə iştirak etmək hüququ əldə edə biləcəklər.

Müsabiqə barədə ictimaiyyətə məlumat veriləcək.

# İsveçrədə təhsil təqaüd proqramı

İsveçrənin Cenevrə Universiteti BMT-nin Cenevrə ofisi ilə tərəfdaşlıq çərçivəsində 2023-2024-cü tədris ili üzrə magistratura səviyyəsinə Avropa və beynəlxalq idarəçilik (MEIG) proqramı üçün təqaüd proqramı elan edir.

Tam təqaüd proqramı təhsil haqqı və yaşayış xərclərini əhatə edir. Müsabiqədə iştirak etmək arzusunda olan Azərbaycan vətəndaşları 15 noyabr 2022-ci il tarixinədək tələb olunan bütün sənədlərlə birgə MEIG proqramının rəsmi internet səhifəsi vasitəsilə onlayn müraciət etməlidirlər.

Təqaüd proqramı çərçivəsində təhsilə dair əlavə məlumatlarla elan *(https://edu.gov.az/uploads/elan/2022/11/isvecre-elan.pdf)* vasitəsilə tanış ola bilərsiniz.

MEIG MASTER OF ADVANCED STUDIES
EUROPEAN AND INTERNATIONAL GOVERNANCE

# AzTU ilə Türkiyənin Hitit Universiteti əməkdaşlığa başladı

Azərbaycan Texniki Universiteti (AzTU) ilə Türkiyənin Hitit Universiteti arasında əməkdaşlıq, tələbə mübadiləsi haqqında memorandumların və “Erasmus+” mübadilə proqramı haqqında müqavilənin imzalanması mərasimi keçirilib.

İmzalanma mərasimində AzTU-nun rektoru Vilayət Vəliyev, Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı, Hitit Universitetinin rektoru Ali Osman Öztürk, Çorum Valisi Mustafa Çiftçi, Çorum bələdiyyə sədri Halil İbrahim Aşqın və digər şəxslər iştirak ediblər.

Rektor V.Vəliyev hazırda AzTU ilə Türkiyənin nüfuzlu universitetlərinin əməkdaşlıq əlaqələrinin yüksək səviyyədə inkişafından danışıb. Bildirib ki, Türkiyə universitetləri ilə ikili diplom proqramları, tələbə-müəllim mübadiləsi, universitet-sənaye işbirliyinin inkişafı istiqamətində mühüm layihələr həyata keçirilir. AzTU və Hitit Universitetinin müvafiq ixtisasları ilə bağlı da yeni əməkdaşlıq istiqamətlərinin qurulması üçün mövcud imkanların olduğu vurğulanıb.

Türkiyənin Azərbaycandakı səfiri Cahid Bağçı bildirib ki, AzTU-nun Türkiyə universitetləri ilə həyata keçirdiyi layihələrdə hər zaman yaxından iştirak edir və bu əməkdaşlıq əlaqələri iki qardaş ölkənin təhsil sahəsinin inkişafına mühüm töhfələr verir. Səfir deyib ki, Hitit Universiteti ilə də başladılan yeni əməkdaşlıq əlaqələri hər iki ali məktəbin müvafiq istiqamətlərdə inkişafına səbəb olacaq.

Rektor Ali Osman Öztürk Hitit Universiteti haqqında ətraflı məlumat verərək qeyd edib ki, universitet regionun inkişafı üçün kadr hazırlığını həyata keçirir və sənaye ehtiyaclarını təmin etmək istiqamətində fəaliyyətlər qurur.

Çorum Valisi Mustafa Çiftçi və Çorum bələdiyyə sədri Halil İbrahim Aşqın çıxışlarında dövlət-universitet-özəl sektor işbirliyinin regional inkişafda əhəmiyyətindən, Çorum bölgəsində mövcud modelin xüsusiyyətləri və üstünlüyündən bəhs ediblər. Bu modelin hər iki universitetin inkişafına töhfə verə biləcəyini bildiriblər.

Görüşdə AzTU və Hitit Universiteti arasında ikili diplom proqramının həyata keçirilməsi, tələbə-müəllim mübadiləsi, universitet-sənaye işbirliyinin inkişafı və sənaye nümunələrinin hazırlanması ilə bağlı qarşılıqlı əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması müzakirə olunub.

Daha sonra hər iki universitet arasında müvafiq sənədlər imzalanıb.

# ADNSU-nun əsas tərəfdaşlığı ilə beynəlxalq elmi konfrans keçirilib

## Konfrans Azərbaycan elminə, neft sənayesi üzrə elmi biliklərin artırılmasına töhfə verəcək

Noyabrın 3-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Orta Doğu Texniki Universiteti (ODTU), Kazan Federal Universitetinin (KFU) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təşkilatçılığı ilə beynəlxalq elmi konfrans başlayıb. "Neft verimliliyinin artırılması üçün termiki üsullar: Laboratoriya sınaqları, simulyasiya və neft yataqlarında tətbiqlər" mövzusunda keçirilən beynəlxalq elmi konfransda dünyanın bir çox ölkələrindən 100-dən artıq qonaq, dövlət və özəl qurumların rəhbərləri, o cümlədən universitetlər iştirak edirlər. Universitetlər arasında Türkiyənin Orta Doğu Texniki Universiteti, Rusiyanın Kazan Federal Universiteti, Ufa Dövlət Neft Texniki Universiteti, Çinin Cənub-Qərb Neft Universiteti, ABŞ-ın Hyuston Universiteti, Meksikanın Meksika Neft İnstitutu, İranın Şərif Texnologiya Universitetindən olan nümayəndələr də iştirak ediblər.



Konfransı giriş sözü ilə açan ADNSU-nun rektoru, professor Mustafa Babanlı konfransın önəmindən danışıb, neft sənayesi ilə bağlı müasir biliklərin alınmasında və beynəlxalq mühitə adaptasiya prosesində bu konfransın mühüm rol oynayacağına ümidvar olduğunu bildirib. O, konfrans çərçivəsində bir sıra mühüm görüşlərin və birgə layihələrin icrasının nəzərdə tutulduğunu qeyd edib.

Azərbaycan Respublikası elm və təhsil naziri Emin Əmrullayev ölkəmizdə bu cür beynəlxalq konfransların keçirilməsinin Azərbaycan elminə, xüsusən də neft sənayesi üzrə elmi biliklərin artırılmasına mühüm töhfə verdiyini deyib və konfransın işinə uğurlar arzulayıb.

Sonra konfransın həmtəsisçiləri - ODTU-nun rektoru, professor Mustafa Verşan Kök, KFU-nun prorektoru, professor Denis Nurgaliyev, UDNTU-nun rektoru, professor Ramil Baxtizin, həmçinin BP-nin vitse-prezidenti Bəxtiyar Aslanbəyli, SOCAR-ın vitse-prezidenti Xalik Məmmədov, Rusiyanın Neft-qaz İstehsalçıları Birliyinin komitə sədri Anatoli Zamri konfransın müasir neft sənayesinin inkişafı, həmçinin müxtəlif ölkələrin təcrübəsinin və yeniliklərinin öyrənilməsi baxımından əhəmiyyətindən danışıb, konfransın işinə uğurlar diləyiblər.

Konfrans plenar mühazirələrlə davam edib.

Qeyd edək ki, konfransa 100-dən çox məqalə və tezis daxil olub. 3 gün davam edən konfrans çərçivəsində ADNSU, ODTU və KFU arasında üçtərəfli görüşlər keçirilib, müştərək elmi layihələrin, tədris proqramlarının icrası ilə bağlı müzakirələr aparılıb.

Noyabrın 5-də Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU), Orta Doğu Texniki Universiteti (ODTU), Kazan Federal Universitetinin (KFU) və Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin təşkilatçılığı ilə keçirilən Beynəlxalq elmi konfrans başa çatıb.

Plenar sessiyalarla davam edən konfransın sonuncu günündə "Regionda kəşfiyyat, qazma və hasilat işlərinin son inkişaf tendensiyası" mövzusunda dəyirmi masa keçirilib.

Konfrans çərçivəsində panel mühazirələrlə yanaşı, iştirakçılar üçün şəhərin bir sıra görməli yerlərinə ekskursiyalar da təşkil olunub. İştirakçılar "Atəşgah məbədi" Dövlət Tarix-Memarlıq Qoruğunu ziyarət ediblər.

# BDU-nun İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı davam edir

Bakı Dövlət Universitetinin (BDU) İsrailin Holon Texnologiya İnstitutu ilə ikili diplom proqramı uğurla davam edir.

Holon Texnologiya İnstitutu ilə BDU-nun Tətbiqi riyaziyyat və kibernetika fakültəsinin Kompüter elmləri ixtisası üzrə bakalavr pilləsində ikili diplom proqramının icrasına 2020-2021-ci tədris ilinin yaz semestrindən başlanılıb.

2021/2022-ci tədris ilində daha 5 tələbənin proqrama cəlb edilməsi ilə sözügedən ikili diplom proqramında təhsil alan tələbələrin sayı 10-a çatdırılıb. Proqrama əsasən, tələbələr 5 semestr BDU-da, 3 semestr isə Holon Texnologiya İnstitutunda təhsil alırlar. Proqramda tədris ingilis dilində aparılır və tələbələrə 3 semestr ərzində 9 fənn Holon Texnologiya İnstitutunun müəllimləri tərəfindən tədris olunur. Bu ilin oktyabr ayında proqramda təhsil alan tələbələrdən 5-i məzun olub, digər 5 tələbə isə təhsillərini davam etdirmək üçün İsrailə yola düşüb.

Proqramın əsas məqsədi kompüter elmləri sahəsində effektiv alqoritmlərin qurulması və təhlilinin müasir metodlarını, texnologiyalarını real sənaye məsələlərinin həllində tətbiq etmək bacarığına malik mütəxəssislər hazırlamaqdır.



REYTİNQ

# Asiyanın ən güclü universitetləri

Böyük Britaniyanın "QS World University Rankings" nəşri Asiyanın ən güclü ali təhsil müəssisələrinin 2023-cü il üzrə reytinqini (QS Asia University Rankings) açıqlayıb. Asiyanın 760 universitetinin yer aldığı reytinq əvvəlki tədqiqatlardan genişliyi ilə fərqlənir və ən böyük sıralama hesab olunur. Pekin Universiteti bu il birinci, ötən ilin lideri olan Sinqapur Milli Universiteti isə ikinci yeri tutur. İlk onluğun qalan hissəsi Şərqi və Cənub-Şərqi Asiyadan, o cümlədən Malayziyadan, materik Çindən və Cənubi Koreyadan müxtəlif ali məktəblərlə əhatə olunmuşdur.

Reytinq üçün istifadə olunmuş metodologiya "QS World Universty Rankings®" üçün istifadə olunan metodologiyaya bənzəyir, lakin bəzi əlavə göstəricilər və uyğunlaşdırılmış çəkilər nəzərə alınıb. Regional ekspertlər və maraqlı tərəflərlə məsləhətləşmə əsasında hazırlanmış bu meyarlar toplusu mövcud məlumatların maksimum mümkün həcmi əsasında Asiyadakı universitetlərin əsas prioritetlərini əks etdirmək məqsədi daşıyır.

"Asia University Rankings QS" reytinqini tərtib etmək üçün istifadə olunan 11 göstərici aşağıdakılardır:

*Akademik nüfuz (30%)*

Bu, hər il QS tərəfindən aparılan böyük qlobal alim sorğusunun məlumatlarından istifadə etməklə qiymətləndirilir. Elm adamlarının öz fənn sahəsindəki ən yaxşı universitetləri müəyyənləşdirməyə dəvət edildiyi bu sorğunun nəticələri, QS dünya universitetləri reytinqləri və QS dünya universitetləri fənn sıralamaları da daxil olmaqla QS tərəfindən hazırlanan digər reytinqlərdə və hesabatlarda nəzərə alınır. Məqsəd beynəlxalq akademik cəmiyyətdə hansı universitetlərin ən böyük nüfuza sahib olduğu barədə rəy toplamaqdır.

*İşəgötürənlər arasında nüfuzu (20%)*

Bu qiymətləndirmənin məqsədi işəgötürənlər tərəfindən ən keyfiyyətli məzunların hazırlandığı universitetləri müəyyənləşdirməkdir. Sorğunun nəticələri bugünkü abituriyentlər və universitet məzunları üçün məşğulluq və karyera perspektivlərinin əhəmiyyətini əks etdirən bir sıra digər QS tədqiqat layihələrini məlumatlandırmaq üçün istifadə olunur.

*Müəllim - tələbə nisbəti (10%)*

Bu göstərici ştatlı akademik işçilərin bir tələbə üçün nisbətini qiymətləndirməyə imkan verir. Məqsəd, tələbələrin bir qurumda nə qədər ünsiyyət və akademik dəstək gözləyə biləcəyi barədə bir fikir yürütməkdir.

*Beynəlxalq tədqiqat şəbəkəsi (10%)*

Scopus tərəfindən verilən məlumatlardan istifadə edərək, bu göstərici qiymətləndirilən hər bir qurum üçün tədqiqat əməkdaşlığı baxımından beynəlxalq açıqlıq dərəcəsini qiymətləndirir. Bu göstərici qurumun dünyanın müxtəlif yerlərindəki digər qurumlarla elmi tədqiqat əməkdaşlığının müxtəlifliyi barədə məlumat verir.

*Məqaləyə olan sitatlar (10%) və fakültəyə düşən məqalələrin sayı (5%)*

Bu göstəricilərin hər ikisi Scopus-un elmi nəşrlər və sitatların bazasından verilən məlumatlardan istifadə etməklə qiymətləndirilir. Birincisi, hər bir müəssisənin tədqiqat ictimaiyyətinə göstərdiyi təsir haqqında rəy vermək üçün dərc olunmuş tədqiqat məqaləsinə istinadların sayını qiymətləndirir. İkincisi isə bir müəllim üçün nəşr olunmuş tədqiqat işlərinin sayını qiymətləndirir. Bu, universitetin ümumi tədqiqat məhsuldarlığı haqqında fikir yürüdür.

*Fəlsəfə doktoru dərəcəsi olan işçilər (5%)*

Bu göstərici fəlsəfə doktoru elmi dərəcəsi almış akademik işçilərin sayını qiymətləndirməyə imkan verir. Bu, professor-müəllim heyətinin və tələbənin nisbət göstəricisini tamamlayır, məqsədi müəssisənin yüksək keyfiyyətli tədrisə sadiqliyinin göstəricilərini təmin etməkdir.

*Xarici müəllimlərin sayı (2,5%) və əcnəbi tələbələrin sayı (2,5%)*

Son dörd göstərici hər bir universitetin nə qədər "beynəlxalq" olduğunu qiymətləndirməyə yönəlib, həm Asiyadakı universitetlər, həm də dünyanın bütün bölgələri üçün beynəlmiləlləşmənin əsas prioritet olduğunu əks etdirir. QS World University Rankings reytinqində də istifadə olunan bu iki göstərici universitetdə "beynəlxalq" kimi təsnif olunan işçilərin və tələbələrin sayını qiymətləndirir.

*Mübadilə üzrə gələn tələbələrin (2,5%) və xaricə səfər edən tələbələrin sayı (2,5%)*

Qlobal reytinqdə istifadə edilməyən bu son iki göstərici Asiya universitetlərində beynəlmiləlləşmə fəaliyyəti haqqında əlavə məlumat verir, hər müəssisəyə daxil olan və gedən tələbə mübadiləsi proqramlarının nisbi həcmini qiymətləndirir.

**Oruc MUSTAFAYEV**

| Reytinq | Ali təhsil müəssisəsi | Ölkə | Topladığı bal |
|---|---|---|---|
| 1. | Peking University | Çin | 100 |
| 2. | National University of Singapore (NUS) | Sinqapur | 97.4 |
| 3. | Tsinghua University | Çin | 97.3 |
| 4. | The University of Hong Kong | Honkonq | 96.8 |
| 5 . | Nanyang Technological University | Sinqapur | 96.7 |
| 6. | Fudan University | Çin | 96.3 |
| =6. | Zhejiang University | Çin | 96.3 |
| 8. | KAIST - Korea Advanced Institute of Science & Technology | Koreya | 93.4 |
| 9. | University of Malaya | Malayziya | 92.6 |
| 10. | Shanghai Jiao Tong University | Çin | 92.2 |
| 11. | The University of Tokyo | Yaponiya | 91.9 |
| =12. | The Chinese University of Hong Kong | Honkonq | 91.4 |
| =12. | Yonsei University | Koreya | 91.4 |
| 14. | The Hong Kong University of Science and Technology | Honkonq | 91.1 |
| 15. | Korea University | Koreya | 90.5 |
| 16. | Kyoto University | Yaponiya | 90.1 |
| 17. | Seoul National University | Koreya | 89.5 |
| 18. | Sungkyunkwan University (SKKU) | Koreya | 87.9 |
| 19. | National Taiwan University (NTU) | Tayvan | 87.4 |
| 20. | Tokyo Institute of Technology | Yaponiya | 86 |
| 21. | Osaka University | Yaponiya | 85.7 |
| 22. | Tohoku University | Yaponiya | 85.5 |
| 23. | City University of Hong Kong | Honkonq | 84.8 |
| =24. | Hanyang University | Koreya | 82.8 |
| =24. | Pohang University of Science And Technology | Koreya | 82.8 |
| 26. | The Hong Kong Polytechnic University | Honkonq | 81.6 |
| 27. | Universiti Putra Malaysia | Malyaziya | 81.2 |
| 28. | Nagoya University | Yaponiya | 77.6 |
| 29. | Hokkaido University | Yaponiya | 76.7 |
| 30. | National University of Malaysia | Malayziya | 76.3 |
| 31. | Kyushu University | Yaponiya | 75.7 |
| 32. | University of Science Malaysia | Malayziya | 73.3 |
| 33. | Nanjing University | Çin | 73.2 |
| 34. | University of Science and Technology of China | Çin | 73 |
| 35. | Wuhan University | Çin | 72 |
| 36. | National Cheng Kung University | Tayvan | 71.7 |
| 37. | Chulalongkorn University | Tayland | 70.1 |
| 38. | National Tsing Hua University | Tayvan | 69.5 |
| 39. | University of Technology Malaysia | Malayziya | 68.8 |
| 40. | Indian Institute of Technology | Hindistan | 68.7 |
| 41. | Waseda University | Yaponiya | 68.6 |
| 42. | Kyung Hee University | Koreya | 67.7 |
| 43. | National Yang Ming Chiao Tung University | Tayvan | 66.8 |
| 44. | Al-Farabi Kazakh National University | Qazaxıstan | 66.1 |
| 45. | Keio University | Yaponiya | 66 |
| 46. | Indian Institute of Technology | Hindistan | 64.9 |
| 47. | Mahidol University | Tayland | 64.8 |
| 48. | Sun Yat-sen University | Çin | 64.4 |
| =49. | Taylor's University | Malayziya | 62.2 |
| =49. | University of Indonesia | İndoneziya | 62.2 |
| 51. | Tongji University Shanghai | Çin | 62 |
| 52. | Indian Institute of Science | Hindistan | 59.4 |
| 53. | Indian Institute of Technology Madras | Hindistan | 59 |
| 54. | University of Tsukuba | Yaponiya | 58.9 |
| 55. | Huazhong University of Science and Technology | Çin | 57.9 |
| 56. | Gadjah Mada University | İndoneziya | 57.4 |
| 57. | Beijing Normal University | Çin | 57.3 |
| 58. | Xi'an Jiaotong University | Çin | 56.5 |
| =59. | Harbin Institute of Technology | Çin | 55.8 |
| =59. | National Taiwan University of Science and Technology | Tayvan | 55.8 |
| 61. | Indian Institute of Technology Kharagpur | Hindistan | 55.4 |
| 62. | Ewha Womans University | Koreya | 55.1 |
| 63. | Bandung Institute of Technology | İndoneziya | 54.8 |
| 64. | Chung-Ang University (CAU) | Koreya | 53 |
| 65. | Tianjin University | Koreya | 52.7 |
| 66. | Indian Institute of Technology Kanpur | Hindistan | 52.4 |
| 67. | National University of Sciences And Technology (NUST | Pakistan | 51.9 |
| =68. | Hong Kong Baptist University | Honkonq | 51.1 |
| =68. | PETRONAS University of Technology | Malayziya | 51.1 |
| 70. | National Taiwan Normal University | Tayvan | 51 |
| 71. | University of Brunei Darussalam | Bruney Respublikası | 50.8 |
| 72. | UCSI University | Malayziya | 50.5 |
| =73. | Kobe University | Yaponiya | 50.4 |
| =73. | National Taipei University of Technology | Tayvan | 50.4 |
| 75. | Renmin (People's) University of China | Çin | 50 |
| =76. | Southern University of Science and Technology | Çin | 48.5 |
| =76. | Ulsan National Institute of Science and Technology | Koreya | 48.5 |
| =76. | Xiamen University | Çin | 48.5 |
| 79. | Sejong University | Koreya | 48.3 |
| =80. | National Sun Yat-sen University | Tayvan | 47.8 |
| 80. | University of Chinese Academy of Sciences (UCAS) | Çin | 47.8 |
| =81. | Airlangga University | İndoneziya | 47.5 |
| =81. | Shanghai University | Çin | 47.5 |
| 82. | Sogang University | Koreya | 47.5 |
| 84. | Sharif University of Technology | İran | 47.2 |
| =85. | Shandong University | Çin | 47.1 |
| =85. | University of Delhi | Hindistan | 47.1 |
| =87. | Hiroshima University | Yaponiya | 47 |
| =87. | Jilin University Changchun | Çin | 47 |
| =87. | University of the Philippines | Filippin | 47 |
| 90. | East China Normal University | Çin | 46.8 |
| 91. | Kyungpook National University | Koreya | 46.7 |
| =92. | University of Tehran | İran | 46.3 |
| 94. | Gwangju Institute of Science and Technology | Koreya | 45.8 |
| 95. | Quaid-i-Azam University | Pakistan | 45.6 |
| 96. | L.N.Gumilyov Eurasian National University | Qazaxıstan | 45.3 |
| 97. | Taipei Medical University | Tayvan | 44.4 |
| 98. | DGIST | Koreya | 44 |
| 98. | Nankai University | Çin | 43.9 |
| =99. | Beijing Institute of Technology | Çin | 43.7 |

# Qarabağ Zəfərinin ikinci ildönümü MDU-da silsilə tədbirlərlə qeyd olunub





Gənclərin xalqına, vətəninə və dövlətinə bağlı layiqli vətəndaş kimi yetişdirilməsini başlıca vəzifələrindən biri olaraq müəyyən edən Mingəçevir Dövlət Universitetində 2-7 noyabr tarixləri Zəfər Gününə həsr olunan müxtəlif formatlı silsilə tədbirlərlə əlamətdar olub. Tədbirlər 44 günlük Vətən müharibəsi və şanlı Zəfərlə bağlı tarixi həqiqətlərin, post-müharibə dövrünün reallıqları və imkanlarının araşdırılması, öyrənilməsi, eləcə də ölkə və onun hüdudlarından kənarda daha geniş ictimaiyyətə çatdırılması, qəhrəman şəhidlərimizin adlarının əbədiləşdirilməsi, cəsur əsgər və zabitlərimizin göstərdikləri şücaət və vətənpərvərlik nümunələrinin gənc nəsil arasında təbliğ edilməsi işlərinə töhfə məqsədi daşıyıb.

### Zəfər Gününə həsr olunan elmi konfranslar

Noyabrın 2-də Mingəçevir Dövlət Universitetində "Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsidir" mövzusunda elmi-praktik konfrans keçirilib. Konfransı MDU-nun rektoru Ş.Bayramov açaraq Şuşanın xalqımız üçün tarixi əhəmiyyətə və yüksək mədəni-mənəvi dəyərə malik olduğunu vurğulayıb. Qeyd edilib ki, strateji mövqedə yerləşən bu şəhərin Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin qətiyyətli rəhbərliyi, qəhrəman əsgər və zabitlərimizin şücaəti sayəsində erməni işğalından azad edilməsi düşmənin kapitulyasiyasına və tezliklə şanlı Qələbənin qazanılmasına səbəb oldu.

Konfransda Qarabağ Zəfərindən dərhal sonra Şuşanın əvvəlki tarixi görkəminin və mədəni ruhunun bərpa edilməsi istiqamətində dövlətin həyata keçirdiyi kompleks və sistemli tədbirlərdən danışılıb. Prezidentin müvafiq sərəncamlarına əsasən Şuşa şəhərinin Azərbaycanın mədəniyyət paytaxtı, 2022-ci ilin "Şuşa İli" elan edilməsinin mühüm tarixi əhəmiyyətə malik hadisə olduğu bildirilib.

Sonra məruzələr dinlənilib. Məruzəçi qismində MDU-nun "Azərbaycan bayrağı" ordenli tələbəsi Elnur Salahov və MDU-nun Vətən müharibəsi iştirakçısı olan əməkdaşı Qaragöz Kərimov da çıxış ediblər.

***

Noyabrın 3-də MDU-da keçirilən digər elmi-nəzəri konfrans "Azərbaycan tarixinə qızıl hərflərlə həkk olunmuş ümumxalq Zəfəri" mövzusuna həsr edilib. Tədbirə şəhid ailələrinin üzvləri və qazilər dəvət olunub.

Konfransda ali təhsil müəssisəsinin rektoru Ş.Bayramov çıxış edərək şanlı qalibiyyətin qazanılması ilə ümummilli lider Heydər Əliyevin vəsiyyətinin yerinə yetirildiyini bildirib. Qeyd olunub ki, uzun müddət işğal altında qalmış əzəli torpaqlarımızda hazırda Azərbaycanın üçrəngli bayrağının dalğalanması, erməni vandalizminə məruz qalan ərazilərdə sürətli quruculuq və abadlıq işlərinin həyata keçirilməsi və buranın əsl sahiblərinin doğma yurdlarına qayıtmağa başlaması hər birimizdə böyük qürur hissləri yaradır. Bütün bunlara görə Vətən uğrunda canından və qanından keçən şəhidlərimizə borclu olduğumuzu bildirən Ş.Bayramov Azərbaycanın xoşbəxt və firavan gələcəyi naminə şəhidlik zirvəsinə ucalan qəhrəman övladların əziz xatirəsinin heç vaxt unudulmayacağını deyib.

Zəfər Gününə həsr olunmuş videoçarxın nümayişindən sonra şəhid Yasən Əhmədovun həyat yoldaşı Aygün Əhmədova, şəhid Əzəmi Hüseynovun bacısı Elnarə Hüseynova çıxış ediblər.

Konfrans məruzələrlə davam edib. Məruzəçilər arasında MDU-nun Vətən müharibəsi iştirakçısı olan kafedra müdiri Mahir İsmayılov da yer alıb.

### Zəfər sərgisi

Noyabrın 3-də isə MDU-da tələbələrin Zəfər Gününə həsr olunan rəsm və əl işlərindən ibarət sərgisi təşkil olunub. Sərgidə tələbə gənclərin Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri və işğaldan azad edilmiş digər doğma yurdlarımız, Qarabağın simvolu Xarıbülbül, tarixi, dini və mədəni abidələr, Vətən müharibəsi və Zəfər Günü ilə bağlı rəsmləri və əl işləri nümayiş etdirilib. MDU-nun rektoru Şahin Bayramov, şəhid ailələri üzvləri və qazilər sərgi ilə tanış olublar.

### Ümumtəhsil məktəbi ilə birgə fəaliyyət

Noyabrın 4-də MDU və Mingəçevir şəhər 3 nömrəli tam orta məktəbin birgə təşkilatçılığı ilə "Shusha - The pearl of Azerbaijan culture" (Şuşa - Azərbaycan mədəniyyətinin incisidir) adlı ingilis dilində tədbir keçirilib. Çıxış edənlər belə bir tədbirin gənclərin vətənpərvərlik ruhunda yetişdirilməsi və tarixi həqiqətlərin daha geniş auditoriyaya çatdırılması baxımından universitet və məktəb kollektivi ilə birlikdə ingilis dilində keçirilməsinin önəmi vurğulanıb.

Zəfər Gününə həsr olunmuş videoçarxın nümayişindən sonra məktəb şagirdlərinin, universitetin müəllim və tələbələrinin ifalarında Şuşa haqqında və vətənpərvərlik mövzusunda şeir və musiqilər səsləndirilib, ədəbi-bədii kompozisiyalar təqdim edilib.

### Ədəbi-bədii gecə, Zəfər mühazirəsi

Noyabrın 5-də MDU Tələbə Gənclər Təşkilatının təşkilatçılığı ilə Zəfər Gününə həsr olunmuş ədəbi-bədii gecə, və tələbə və magistrantlar üçün "44 günlük Vətən müharibəsi Azərbaycan xalqının zəfər tarixidir" mövzusunda mühazirə keçirilib.

### Qardaş Türkiyə universitetləri ilə birgə tədbirlər

Cari ilin noyabrın 7-də isə Azərbaycanın Türkiyədəki səfirliyi, MDU və Türkiyənin KTO Karatay Universitetinin birgə təşkilatçılığı ilə Qarabağ Zəfərinin ikinci ildönümünə həsr olunan onlayn formatda tədbir keçirilib. Tədbirdə çıxış edən səfirliyin təhsil müşaviri Nəcibə Nəsibova, Qazi Universitetinin rektoru Musa Yıldız, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, KTO Karatay Universitetinin rektoru Fevzi Rifat Ortaç və MDU-nun rektoru Şahin Bayramov iki qardaş ölkənin ali təhsil müəssisələri arasında Zəfər Gününün qeyd edilməsindən məmnunluqlarını və əlamətdar tarixi gün münasibətilə təbriklərini ifadə ediblər. Çıxış edənlər Vətənin bütövlüyü uğrunda canından keçən qəhrəmanların əziz xatirəsinin xalqımızın qəlbində daim yaşayacağını, dərin ehtiram və sonsuz minnətdarlıq hissləri ilə yad ediləcəyini bildirərək, bütün şəhidlərə Allahdan rəhmət, qazilərə isə şəfa diləyiblər.

Qeyd olunub ki, 30 ilə yaxın erməni işğalına və vandalizminə məruz qalmış əzəli yurdlarımız düşmən tapdağından azad edildi və tarixi ədalət bərpa olundu. 44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi və Rəşadətli Azərbaycan Ordusunun igid əsgər və zabitlərinin şücaəti sayəsində qazanılan Qarabağ Zəfəri Türk Dünyası tarixinin şanlı səhifələrindəndir. Hazırda özünün ən yüksək inkişaf səviyyəsinə çatmış Türkiyə-Azərbaycan qardaşlığı şanlı qələbənin əldə edilməsində əhəmiyyətli rol oynayıb və post-müharibə dövrünün yeni reallıqları şəraitində də gücünü və nüfuzunu bütün dünyaya nümayiş etdirir.

Panel sessiyada KTO Karatay Universitetindən professor Murat Canıtez "Qarabağ Zəfəri və beynəlxalq ticarətdə logistika komponentləri", Şerife Nesimioğlu "Türkiyə-Azərbaycan enerji dialoqu: güclü tərəflər və fürsətlər", MDU-dan dosent Vəfa Məhərrəmova "Tarixin, mədəniyyətin, qəhrəmanlığın və Zəfərin rəmzi Şuşa" və Gülər Əjdərzadə "Türk Dünyasının sosial-siyasi və etnik-mədəni inteqrasiyası" mövzusunda məruzələrlə çıxış ediblər.

Həmin günTürkiyədən olan tərəfdaş İstanbul Gedik Universiteti ilə də onlayn formatda birgə tədbir keçirilib. Tədbirin açılışında İstanbul Gedik Universitetinin rektoru Ahmet Kesik və MDU-nun rektoru Ş.Bayramov çıxış ediblər. Açılış nitqlərində Qarabağda qazanılan şanlı qalibiyyətin bütün Türk Dünyasının zəfəri olduğu diqqətə çatdırılıb. Vurğulanıb ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyətli siyasətini, Ordumuzun yenilməz gücünü, qardaş Türkiyənin mənəvi dəstəyini, xalqımızın sarsılmaz birliyini və haqlı mövqeyini özündə cəmləşdirən "Dəmir yumruq" şanlı qələbənin rəmzinə çevrildi. Türk dünyasının ulu öndərləri Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamları səsləndirilərək qeyd olunub ki, hər iki ölkə arasında qardaşlıq münasibətləri 44 günlük Vətən müharibəsindən sonra daha da güclənib.

Sonra panel sessiyada müxtəlif mövzularında məruzələr dinlənilib.

### Şəhid ailələrini ziyarət və onlarla görüş

Zəfər Günü münasibətilə MDU kollektivi bu ali təhsil müəssisəsinin 44 günlük Vətən müharibəsində şəhid olmuş məzunları Kənan Abdullayev, Oruc Nəcəfli və Əzəmi Hüseynovun, mingəçevirli Aprel döyüşləri şəhidləri Adil Adilzadə, Teymur Qasımov, Rüstəm Əhmədov və Rahim Tağıyevin, həmçinin, hazırda iki övladı MDU-da təhsil alan şəhid Yasən Əhmədovun ailələrini ziyarət edib və universitetdə onlarla görüş keçirib.

Görüşlər zamanı Vətən uğrunda canlarını qurban verən qəhrəman şəhidlərin əziz xatirəsi dərin ehtiram və minnətdarlıq hissi ilə anılıb və şanlı Zəfəri xalqımıza bəxş edən igid əsgər və zabitlərimizlə qürur duyulduğu bildirilib. Qeyd edilib ki, tarixi Zəfər yürüşündə MDU-nun 4 əməkdaşı, 120-dən çox tələbə və məzunu iştirak edib, 5 məzunu isə şəhdilik zirvəsinə ucalıb. Həmçinin, MDU-nun bir məzunu bu ilin sentyabrın 12-də Ermənistan silahlı qüvvələri tərəfindən sərhəddə törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid olub. Şəhid ailələri göstərilən yüksək diqqət və qayğıya görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.



Noyabrın 8-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində (ADNSU) 8 Noyabr - Zəfər Günü qeyd olunub və bayram günündə universitetin 23 şəhid məzununun hər birinin adına auditoriyaların açılışı olub. Universitetin professor-müəllim heyətinin, şəhid məzunlarımızın valideynləri və yaxınlarının, o cümlədən, tələbələrin iştirak etdiyi tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra ADNSU-nun rektoru, professor Mustafa Babanlı Zəfər Gününün 2-ci ildönümü münasibətilə hər kəsi təbrik edib və xalqımızın ən şanlı qələbəsi olan 8 Noyabr Zəfərinin tariximizə qızıl hərflərlə yazıldığını deyib. Qələbəni şərtləndirən əsas amillərdən söz açan rektor, professor Mustafa Babanlı 44 günlük müharibə zamanı Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordu-Xalq birliyi və xalqımızın öz tarixi torpaqlarına sahib olmaq istəyi nəticəsində torpaqlarımızın qısa müddətdə düşmən tapdağından azad olunduğunu diqqətə çatdırıb.

# ADNSU-da şəhid məzunların adına auditoriyalar açılıb



Rektor, professor Mustafa Babanlı bizə öz canları bahasına bu qələbə sevincini yaşadan şəhidlərimizin xalqımızın qəlbində əbədi yaşayacağını vurğulayıb və onların xatirəsinin hər zaman uca tutulacağını bildirib. O, universitetdə şəhid məzunların xatirəsinin əbədiləşdirilməsi istiqamətində görülən işlər çərçivəsində 23 şəhid məzunumuzun hər birinin adına auditoriyalar yaradıldığını iştirakçıların diqqətinə çatdırıb.

Universitetin Akt zalında başlanan tədbir Vətən müharibəsində şəhid olmuş ADNSU məzunlarının xatirəsinə salınmış kompleksin, həmçinin Milli Qəhrəman Mübariz İbrahimovun abidəsi önünə əklil qoyulması ilə davam edib.

Sonra şəhidlərimizin valideynlərinin və yaxınlarının iştirakı ilə onların qəhrəman övladlarının adlarına olan auditoriyaların açılışı olub. Hər bir şəhidimizin adına olan auditoriyada həmin şəhidimizin həyat və döyüş yolundan bəhs edən stendlər quraşdırılıb.

Şəhidlərin ailə üzvləri və yaxınları çıxışlarında övladları ilə bağlı xatirələrini bölüşüb, şəhidlərə göstərilən diqqət və ehtirama görə, dövlətimizə, universitet rəhbərliyinə təşəkkürlərini bildiriblər.

---



# Qarabağda tarix yazan şəhid təhsil işçisi



## Rəşadətinizlə 45 dəqiqəlik yox, 44 günlük həyat dərsi verdiniz, Elvin müəllim...

27 sentyabr - 10 noyabr 2020-ci il... Azərbaycan tarixinin ən şanlı səhifəsi. Şəhidlik zirvəsinə fəxarətlə ucalanlar Azərbaycanın qəhrəmanlıq dastanına döndülər. Onlar Azərbaycanın ərazi bütövlüyü uğrunda misilsiz şücaət və qəhrəmanlıqları ilə özlərinə əbədiyaşarlıq və ölümsüzlük qazandırdılar.

44 günlük qanlı savaşda Rəşadətli Azərbaycan Ordusu mənfur düşmənin üstünə şığıdı bir aslan kimi. Şimşək kimi çaxdı göyün ənginliyində igidlərimizin nifrət dolu baxışı. Sel kimi coşub daşdı sinəsi vətən eşqi ilə döyünən minlərlə igid oğullarımızın nifrəti, qəzəbi. Dəmir yumruq kimi birləşib illərin hiddətini, intiqamını əldə silah edib hücum etdilər yağıların üstünə. Ölümün üstünə gülə-gülə, mərdanəliklə, qorxmazcasına atıldılar. Minlərlə igid bir an belə öz həyatını düşünmədən düşmən üzərinə şığıyıb illərdir işğal altında inim-inim inləyən torpaqlarımızın qisasını aldılar. Hər bir əsgər sinəsini sipər etdi Vətən naminə. Can verdilər, qan tökdülər şəhid, qazi oldular, amma düşmənə baş əymədilər, sinələrində yurd sevgisi, gözlərində intiqam, düşüncələrində analarının öyüd-nəsihəti ölümün gözünə dik baxdılar.

Hər bir qəhrəman bir salnamə yazdı öz igidliyi, fədakarlığı, qeyri-adi döyüş məharəti, şərəfli ölümü ilə. Onlar öz ölümləri ilə ölümsüzlük qazandılar, Şəhidlik mərtəbəsinə yüksəldilər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən siyasəti, xalq sevgisi ilə illərdir sinəmizdə yara bağlayan Qarabağ dərdinə çarə tapıldı. Prezident İlham Əliyev ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək ATA vəsiyyətini yerinə yetirdi, tarixi qələbə çaldı və bu zəfərlə bütün dünyanı heyran etdi. Minlərlə igid oğullarımız Qarabağda qəhrəmanlıq dastanı yazıb adlarını Şanlı tarix kitabına həkk etdilər.

Belə qəhrəmanlardan biri də qələmini silaha dəyişib döyüşə atılan, sinif otağını səngərlə əvəz edib düşmənə igidlik dərsi keçən, sinəsini vətən naminə sipər edən, şərəfli ölümü ilə gələcək nəsillərə həyat məktəbi, qəhrəmanlıq salnaməsi yadigar qoyan 31 yaşlı gənc məktəb direktoru, vətənpərvər müəllim Elvin İmaməliyevdir. "Mən arzu edirəm ki, gələn il Bayraq Günündə Azərbaycan bayrağı Şuşada, Xankəndidə dalğalansın!". Bu fikirlərin müəllifi düz bir il sonra öz arzusuna çatdı, nəhayət ki...

Rəşadətinizlə Qarabağda hamımıza 45 dəqiqəlik yox, 44 günlük həyat dərsi verdiniz, Elvin müəllim... Özünüz dönüb qəhrəmanlıq məktəbi oldunuz! Həyat imtahanından üzüağ çıxıb müqəddəs qanınızı qələm, sinənizi kağız eləyib Vətən adlı dastan yazdınız. Qanınız qırmızı mürəkkəb olub bayrağımızın al rəngini daha da parlaq etdi, Elvin müəllim. Artıq üçrəngli bayrağımız məhz Elvin müəllim kimi ölümü ilə ölümsüzlük qazananların sayəsində AZAD Qarabağda dalğalanır.

Öz həyat hekayəsi ilə bir çox gəncə örnək ola biləcək, peşəsinin sözün həqiqi mənasında vurğunu olan və qısa müddət ərzində təhsil sahəsində bir sıra uğurlara imza atan, Qarabağ müharibəsində qələmi süngüyə, silaha çevirib şəhadətə yüksələn müəllimlərimizdən biri olan Elvin İmaməliyev 1989-cu il mayın 9-da Ağstafa rayonunun Qırılı kəndində anadan olub. 1995-2006-cı illərdə orta təhsilini S.Əliyev adına Qırılı kənd tam orta məktəbində, 2006-2010-cu illərdə isə Azərbaycan Dillər Universitetində xarici dil müəllimliyi (fransız dili) ixtisası üzrə ali təhsil alıb.

Elvin İmaməliyev 2012-ci ildə müəllimlərin işə qəbulu üzrə imtahanın nəticələrinə əsasən orta təhsil aldığı Ağstafa rayonunun Qırılı kənd tam orta məktəbində müəllim olaraq fəaliyyətə başlayır. Rəfiqə müəllimin və Elsevər atanın ailəsində əsl vətənpərvər övlad kimi təlim-tərbiyə alan gənc pedaqoq mükəmməl təhsili, bir neçə dil bilməsi, natiqlik qabiliyyəti, humanistliyi, yardımsevərliyi, yüksək mənəvi keyfiyyətləri, yenilikçiliyi ilə Ağstafa təhsil mühitində daim seçilir, sevilirdi. Rayonun ictimai işlərində fəallıq göstərən Elvin İmaməliyev 2019-cu ildə direktorların işə qəbulu üzrə müsabiqədə iştirak edərək yüksək bal toplayıb Ağstafa şəhəri 1 nömrəli tam orta məktəbə direktor təyin edilir. Rayonun ən gənc məktəb direktoru olaraq tanınırdı. Yeni Azərbaycan Partiyasının Ağstafa Rayon Şöbəsinin Gənclər Birliyinin sədri idi. "Torpaq, uğrunda ölən varsa, vətəndir" - deyimini həyat amalına çevirmişdi. Vətənpərvər müəllim idi. Müəllimlik və direktorluq fəaliyyəti dövründə bu istiqamətdə xeyli önəmli işlər görüb müəllim-şagird kollektivinin dərin sevgi və hörmətini qazanmışdı.

O, 2010-2011-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Olduqca vətənpərvər bir gənc olan Elvin 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Cəbrayıl və Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə könüllü olaraq iştirak edərək qəhrəmanlıq göstərir. Noyabrın 9-da Şuşa döyüşləri zamanı şəhid olur. 13 noyabr 2020-ci ildə doğulub boya-başa çatdığı Ağstafa rayonunun Qırılı kəndində dəfn edilir.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüşlərdə qəhrəmanlıq göstərdiyinə, hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyinə, eləcə də Şuşa şəhərinin işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə ölkə başçısı İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Elvin İmaməliyev ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

İgid qəhrəmanımız ailəli idi. Şəhid xanımı olmaq şərəfini qürurla daşıyan həyat yoldaşı Əsmər İmaməliyeva Elvin müəllimin əziz xatirəsini daima əziz tutaraq şəhidimizin iki oğul əmanətini, yadigarını göz bəbəyi kimi qoruyub əzizləyir, yüksək vətənpərvərlik hissi ilə onların təlim-tərbiyəsi ilə məşğul olur. Əsmər xanımın ailəsində daha bir şəhid qəhrəman var. Dayısı Fəxri Nağıyev 1-ci Qarabağ müharibəsində iştirak edib və 1992 -ci ildə Qələmçə yüksəkliyi uğrunda döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Əsmər İmaməliyeva əsl Azərbaycan qadını, anası kimi hər iki şəhidin xatirəsini əziz tutaraq onların igidliklərini bir həyat dərsi kimi qətrə-qətrə aşılayır övladları Tunar və Təyyara.

Poladlar, İlqarlar, Xudayarlar, Cəbrayıllar, Elvinlər, Mübarizlər və adlarını qeyd etmədiyimiz yüzlərlə, minlərlə igidlərimizin sayəsində Qarabağın qara bəxti ağ donunu geyindi əyninə. Hər birinizi ehtiramla yad edirik, ey vətən aşiqləri, ruhunuzun qarşısında sonsuz minnətdarlıq hissi ilə baş əyirik. Azərbaycan adlı məmləkət var olduqca, xalqımız yaşadıqca siz də yaşayacaqsınız, ey vətənin sinəsini öz tökülən qanları ilə gülüstana çevirən şəhidlərimiz, siz unudulmayacaqsınız. Siz üçrəngli bayrağımızda, səslənən himnimizdə, döyünən qəlbimiz, düşünən beynimizdə, keçmişimizdə, gələcəyimizdə, bütün varlığımızdasınız. Böyüməkdə olan gənc nəslə həyat məktəbi, qəhrəmanlıq nümunəsi, igidlik örnəyisiniz, ey ölməz şəhidlərimiz! Siz vətənin özüsünüz, qəlblərin gözüsünüz, vətən bir dildirsə, siz vətənin sözüsünüz! Qarabağ Azərbaycandır!

**Günel MƏMMƏDOVA,**
*Bakıdakı 1 nömrəli İdman liseyinin Azərbaycan dili və ədəbiyyat müəllimi*



# Paytaxt məktəbliləri Saatlıda Şəhidin xatirəsini andılar



Təhsil aldığım Bakı şəhəri Səbail rayonundakı 51 nömrəli tam orta məktəbdə şagirdlərin vətənpərvərlik ruhunda böyüməsi üçün tez-tez müxtəlif tədbirlər keçirilir. Məktəbimizin məzunlarından şəhid olan qəhrəmanların anım və doğum günləri həmişə diqqətdə saxlanılır, onların valideynlərinin, döyüş yoldaşlarının, İkinci Qarabağ müharibəsində qazi olan məzunlarımızın iştirakı ilə xatirələri anılır, ədəbi-bədii görüşlər keçirilir.

8 noyabr Zəfər Günü ərəfəsində VIII "A" sinfinin şagirdləri İkinci Qarabağ müharibəsində qəhrəmanlıqla döyüşərək şəhid olan Oktay Səfərovun doğulub boya-başa çatdığı Saatlı rayonundakı Qaralar kəndinə getdik. Çünki bizim sinif xeyli vaxtdır şəhid O.Səfərovun adını daşısa da onun haqqında geniş məlumatımız yox idi. Sinif rəhbərimiz Rəhilə Muradovanın istirahət günlərində şəhid ailəsini ziyarət etmək təklifi hamımızın ürəyincə oldu. Məktəbimizin uşaq birliyinin rəhbəri Tofiqə Məcidova da sinif rəhbərimizlə birlikdə ziyarətə gedənlərə rəhbərlik edirdilər.

Əvvəlcə şəhid Oktay Səfərovun Qaralar kəndində yaşadığı evə getdik. Kənddə bizi şəhidin anası, bacısı və yaxınları qarşıladılar. Oktayın anası Zülfiyyə Səfərova ilk olaraq Oktayın muzey kimi düzəltdiyi otağını bizə göstərdi. Otaqda şəhidin müxtəlif şəkilləri, hərbi geyimi, təltif olunduğu medallar asılmışdı. Zülfiyyə xanım bildirdi ki, oğlu Zəngilan, Qubadlı, Füzuli və Xocavənd istiqamətlərində gedən döyüşlərdə iştirak edib.

"Hərbi komissarlıqdan çağırış gələndə Oktay çox sevinirdi. Onu müharibəyə aparanda üç dəfə avtomobildə yer olmadığına görə maşından düşürüblər. Lakin o, təkid edərək özünü döyüşə gedən yoldaşlarından ayırmayıb və beləcə qəhrəmanlıq dolu günləri başlayıb. Baş atıcı olduğuna görə həmişə ön cəbhədə döyüşüb. Oktayla sonuncu danışığımız noyabrın 2-də olub. Həmin vaxta qədər, demək olar ki, hər gün danışmışıq. Çətinlikləri barədə mənə heç nə deməzdi. Ayın 2-dən 18-nə kimi oğlumdan məlumat ala bilməmişik. Elə uşaq idi ki, heç cür məni xəbərsiz qoymazdı. Artıq noyabrın 11-dən narahat oldum. Hər yerdə onu axtardım. Noyabrın 18-də nəşini Füzuli rayon Diaqnostika Mərkəzində tapdım. Ayın 19-da kəndimizdə dəfn olundu.

Anası vurğuladı ki, Oktay çox mehriban, qayğıkeş, ağıllı uşaq idi. Savadlı idi, ancaq ali məktəbə daxil olmaq ona qismət olmadı. 11-ci sinfi bitirəndə universitetə girməyə 5 balı çatmadı. Daha sonra Şirvanda Araz kurslarına qoyduq. Orada sınaq imtahanlarından 500-dən yuxarı bal yığdı. 9 ay hazırlaşdı, sonra hərbi xidmətə getdi. Hərbi xidmətini başa vurandan sonra yenidən ali məktəbə qəbul imtahanlarına hazırlaşmağı düşünürdü. Əsgərliyini başa vurmasına 4 ay qalmış atası qəzaya düşdü. Qabırğası sındı, yaddaşı itdi. Bütün ailənin yükü onun çiyinlərinə düşdü, ona görə təhsil ala bilmədi. Bir il yol idarəsində işlədi, sonra Bakıda tikintidə, 3 il də Türkiyədə işlədi. 2019-cu ilin dekabrında evləndirmək məqsədiylə Azərbaycana gətirdim. Həmin dövrdə dünyada koronavirus dalğası yayılmışdı. Oktayın 6 illik sevgisi, bir çox arzuları yarımçıq qaldı".

Öyrəndik ki, "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə"medalları və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən Oktay Əhmət oğlu Səfərov 1993-cü il mayın 15-də Saatlı rayonunun Qaralar kəndində anadan olub. 2011-2013-cü illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında həqiqi hərbi xidmətdə olub. Oktay Səfərov 2020-ci il sentyabrın 27-də Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı qəhrəmanlıq göstərib. O, noyabrın 3-də Xocavəndin azad edilməsi uğrunda gedən döyüşlər zamanı qəhrəmanlıqla şəhid olub. Saatlı rayonunda dəfn olunub.

Zülfiyyə Səfərova onu da əlavə etdi ki, Oktay futbol fanatı idi. Maraqlı oyunlar olanda gecə yarısına kimi oturub izləməyi sevirdi. Bir də qardaş Türkiyənin kanallarında göstərilən "Çuxur" serialına həvəslə baxırdı.

Oktayın bacısı Günel Rəsulova da bizə qardaşı haqqında məlumat verdi. Bildirdi ki, Oqtay tək mənə qardaş olmayıb. "Məndən bir yaş kiçik olsa da mənə ata, dost, sirdaş olub. Atam avtomobil qəzası nəticəsində yaddaşını itirib, II qrup əlildir. Mən atamın bu cür xəstə olmasını qardaşım sağ ikən hiss etməmişdim. İndi görürəm ki, atam nə vəziyyətdədir".

G.Rəsulova bildirdi ki, qardaşım ailəmizi necə sevirdisə, Vətəni də elə sevirdi: "Məncə, o bizi belə kimsəsiz qoyub getmək istəməzdi. Mən sağlığında da onunla fəxr edirdim, indi də fəxr edirəm. Vətən sağ olsun. Arzumuz budur ki, onun xatirəsi daim yaşasın. Hamı onu tanısın".

G.Rəsulova qardaşı ilə bağlı kövrək bir xatirəni də bizimlə bölüşdü: "Mən ailə quranda qardaşımın 20 yaşı vardı. O mənə atalıq etdi, iki il işləyib bütün cehizlərimin kreditini ödədi. Mən onun mənə etdiklərinin bir faizini də olsa qaytara bilmədim. Tovuz hadisələrində, Aprel döyüşlərində şəhid olan Vətən oğullarımızın xəbərini eşitdikcə hamısına bir-bir ağlamışdım. Sanki mən də bunu yaşayacaqmışam kimi. Qardaşım döyüşlərdə olanda Allaha yalvarırdım ki, bizə bunu yaşatmasın. İndi necə dözürük, anlaya bilmirəm. Yəqin ki, həyatda qalan ailəmizə görə ayaqda dururuq. Bir də xalqımızın hər bir şəhidi öz balası kimi əzizləməsi, onların xatirəsini həmişə əziz tutması bizə təsəllidir".

Sonra şəhidin uyuduğu Qaralar kənd qəbiristanlığına getdik. Onun məzarına gül dəstələri, sinif yoldaşlarımızın adından hazırladığımız əklil qoyduq. Qayıdanda yoldaşlarımızın hər biri sanki ziyarətində olduğumuz şəhid ailəsinin acısını özümüzlə götürmüşdük. Könlümüzdən bir nida, bir fikir keçirdi: "Mən də Vətənimizin dar günündə Oktay kimi döyüşməyə, qəhrəmanlıq göstərməyə hazıram. Onun yarımçıq qalmış arzularını biz məktəblilər davam etdirəcəyik".

Allah bütün şəhidlərimizə rəhmət eləsin.

**Yaqub ƏLİYEV,**
*Bakı şəhər 51 nömrəli tam orta məktəbin 8 "A"sinif şagirdi*

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**

vakant yeri üzrə aşağıdakı qeyd olunan vəzifəni tutmaq üçün müsabiqə

**ELAN EDİR:**

| Kafedra | Vəzifə | Yer |
|---|---|---|
| Aşıq sənəti kafedrası | Kafedra müdiri | 1 |

Müsabiqədə kafedranın profilinə uyğun peşə-ixtisas hazırlığına, elmi ad və elmi dərəcələrə, elmi-pedaqoji təcrübəyə malik Azərbaycan Respublikası vətəndaşları, həmçinin mövcud qanunvericiliyin tələbləri gözlənilməklə xarici ölkə vətəndaşları iştirak edə bilərlər.

İddiaçılar müsabiqənin keçirilməsi üçün sənədlərini Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinə göndərə bilərlər.

**Ünvan:** Bakı şəhəri, AZ 1065, İnşaatçılar 39

**Telefon:** 599-00-54 (daxili-100)

**REKTORLUQ**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu, Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan nəşriyyatı" MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7726 **Sifariş** 3204

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 63 nömrəli tam orta məktəbin IX sinfini 1991-ci ildə bitirmiş Fətiyev Samir Həsənrza oğluna verilmiş 870738 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Humanitar Fənlər təmayüllü məktəb-liseyi** 2022-ci ildə bitirmiş Əhmədova Səbinə Niyazi qızına verilmiş E-471778 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 9 nömrəli köçkün tam orta məktəbi 1999-cu ildə bitirmiş Vəliyev Şahin Rəşid oğluna verilmiş A-352062 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Tasmalı kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş Haqverdiyeva Kəlimət İzzət qızına verilmiş A-391533 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Həsənsu kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Mərdanov Abbasəli Məhərrəm oğluna verilmiş B-408275 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Düzqışlaq kənd tam orta məktəbi 2004-cü ildə bitirmiş Əkbərova Vüsalə Mirzə qızına verilmiş B-054357 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Sadıqlı kənd tam orta məktəbin IX sinfini 2021-ci ildə bitirmiş Hüseynli Aqşin Hüseyn oğluna verilmiş C-554486 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağstafa rayon** Poylu kənd tam orta məktəbi 2002-ci ildə bitirmiş Vəliyev Teyyub Namizəd oğluna verilmiş A-610578 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 129 nömrəli tam orta məktəbi 2018-ci ildə bitirmiş Ağayev Sadiq Bəylər oğluna verilmiş E-144778 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Horadiz kənd tam orta məktəbi 1989-cu ildə bitirmiş Quliyev Oktay Allahverdi oğluna verilmiş AK-595574 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Tibb Universiteti** tərəfindən 2009-cu ildə Mustafayeva Ruxsarə Çingiz qızına verilmiş B-141826 nömrəli bakalavr diplomu və diploma əlavə 2011-ci ildə verilmiş MNB-025729 nömrəli magistr fərqlənmə diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazıqumlaq kənd 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Buludova (Sadıqova) Vəfa Əfqan qızına verilmiş 335567 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ucar rayon** Qazıqumlaq kənd 2 nömrəli tam orta məktəbi 2009-cu ildə bitirmiş Əzizova (Sadıqova) Şəbnəm Əfqan qızına verilmiş 538974 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 248 nömrəli tam orta məktəbi 2014-cü ildə bitirmiş Bəhmənli Araz Adil oğluna verilmiş A-287930 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**132-134 nömrəli təhsil kompleksini** (keçmiş 134 nömrəli məktəb) 2009-cu ildə bitirmiş Hüseynov Nicat Firdovsi oğluna verilmiş B-606120 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Hacıqərvənd kənd tam orta məktəbi 2003-cü ildə bitirmiş Muradova Anarə İmamverdi qızına verilmiş A-648630 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Səhlabad kənd tam orta məktəbi 1978-ci ildə bitirmiş Penciyeva Aybəniz İdiş qızına verilmiş 19615 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər şəhər** 6 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əzizli Tahir Zakir oğluna verilmiş A-069579 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** F.Salmanov adına şəhər tam orta məktəbi 2022-ci ildə bitirmiş Nağdıyev Cəfər Vüqar oğluna verilmiş E-526358 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Tərtər rayon** Hacıqərvənd kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Abbasov Ramil Afaddin oğluna verilmiş A-248433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Məhərrəmli kənd tam orta məktəbi 2018-ci ildə bitirmiş Sadıqov Qadir Sarvan oğluna verilmiş E-118851 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir rayon** Şilyan kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Carıyev Amil Bəhrəm oğluna verilmiş A-569456 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 229 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əzizi Eldəniz Gülməmməd oğluna verilmiş B-489647 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 1998-ci ildə bitirmiş Məmmədova Xəyalə Qafar qızına verilmiş A-222283 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 27 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Cəfərov Murad Fikrət oğluna verilmiş E-449087 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Maliyyə Kredit Texnikumu** tərəfindən 1992-ci ildə Cəfərova Ruhəngiz Abdul qızına verilmiş PT-I-100669 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Yadigarova Tamara Kərim qızına verilmiş 338327 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Nəsimi adına şəhər 2 nömrəli tam orta məktəbin IX sinfini 2005-ci ildə bitirmiş Ağayeva (Qardaşova) Gülnar Rəcəb qızına verilmiş A-221863 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Füzuli rayon** Kərimbəyli kənd tam orta məktəbi 2009-cu ildə bitirmiş Həziyeva Elmunə Ağalar qızına verilmiş B-663132 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Boladi kənd 1 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Cəfərova (Əkbərova) Günay Təyyar qızına verilmiş B-252405 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Mamusta kənd tam orta məktəbi 1991-ci ildə bitirmiş Quliyev Nəsib Mehdi oğluna verilmiş 080273 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qaradağ rayonu E.Quliyev adına Sağlamlıq imkanları məhdud uşaqlar üçün 9 nömrəli xüsusi internat məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Hüseynli Gülnar Vaqif qızına verilmiş A-606461 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 21 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Xankişiyev Elnur Güləli oğluna verilmiş tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi** tərəfindən 2003-cü ildə Şəfiyev Famil Mirsahib oğluna verilmiş A-119739 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

# "Ətrafımdakı şagirdlərə olimpiadaları sevdirməyə çalışıram"




**Tanıtım**

9 fevral 2005-ci ildə Sumqayıt şəhərində anadan olub. IV sinfə qədər 1 və 18, V sinifdən isə Sumqayıt şəhəri Təbiət elmləri təmayüllü gimnaziyada təhsil alıb və həmin məktəbdən məzun olub. Olimpiada həyatı boyunca ölkə səviyyəli müxtəlif yarışlarda riyaziyyat və fizika fənləri üzrə 2 qızıl, 2 gümüş, 3 bürünc, Respublika fənn olimpiadalarından isə riyaziyyat fənni üzrə 2 bürünc medal qazanıb (2019 və 2021-ci illərdə). Tam orta təhsilini qızıl nişanla və xüsusi nümunəli attestatla bitirib.

Müasir dövrdə insan kapitalının inkişaf etdirilməsi ölkəmizdə ali təhsil sistemi qarşısında mühüm vəzifələr qoyur. Ölkə iqtisadiyyatının hərtərəfli inkişafı, güclü kadr potensialının formalaşdırılması baxımından Prezident İlham Əliyevin 28 fevral 2022-ci il tarixli 2931 nömrəli Sərəncamı ilə təsdiq olunmuş "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı"nın da əsas hədəfi dünyadakı əsas inkişaf meyilləri nəzərə alınmaqla yeni nəsil mütəxəssislərin yetişdirilməsinə nail olmaqdır. Ölkəmizin gələcək inkişaf prioritetlərini özündə əks etdirən bu proqram çərçivəsində artıq neçə-neçə istedadlı gənc dünyanın nüfuzlu universitetlərində təhsil alır. Onlardan biri də ölkəmizdə keçirilən fənn olimpiadalarında yüksək mükafatlar qazanaraq Koreyanın Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunda (KAIST) təhsil almaq imkanına sahib olan Fərid Rəhimlidir.

## Koreyanın Qabaqcıl Elmlər və Texnologiyalar İnstitutunun tələbəsi Fərid Rəhimli:

# "Reytinqli universitetlərə qəbul olmanın sirri çox və davamlı çalışmaqdır"

*- Həyatınızda beynəlxalq olimpiadaların rolunu necə qiymətləndirərdiniz?*

- Olimpiada hazırlığına 7-ci sinifdə başlamışam, 8-ci sinifdən Təhsil İnstitutunun təşkil etdiyi beynəlxalq olimpiadalara hazırlıq qruplarına qatılmışam. Bu qruplar mənim həyatımda böyük dəyişikliklərə səbəb oldu. Belə ki, xaricdə təhsil almaq planım bu qruplarda dərslərə qoşulduğum müddətdə yarandı. Əlavə olaraq bu qruplarda ölkədə və dünyada tanınmış müəllimlərdən dərs alıb riyaziyyat fənni üzrə biliklərimi yüksək səviyyədə inkişaf etdirdim. Burada əldə etdiyim təcrübə və biliklər müxtəlif yarışlarda və olimpiadalarda, həmçinin xarici universitetlərə qəbul ala bilməyimdə həlledici rol oynadı.

*- Ali təhsil üçün Koreyanı seçmisiniz. Bunu necə izah edərdiniz? Kimlərinsə məsləhəti, yoxsa özünüz seçmisiniz? Bu ölkədə təhsil sizin üçün nə dərəcədə cəlbedicidir?*

- Koreyada təhsil almaq fikri məndə uşaq yaşlarından var idi. KAIST dünya reytinqində top 50-liyə daxildir və kompüter elmləri sahəsi üzrə yüksək təhsil verən ali təhsil müəssisəsidir. Buna görə də KAIST-da təhsil almaq fikri məni hamişə özünə cəlb edib. Həmçinin Koreyanın texnoloji cəhətdən çox inkişaf etmiş bir dövlət olması da qərarıma böyük təsir elədi. Məncə, Koreya kompüter elmləri üzrə təhsil almaq üçün ən ideal ölkələrdən biridir.

*- İxtisasınız barədə nə deyə bilərsiniz? Kompüter elmləri sizin üçün nə dərəcədə maraqlı sahədir?*

- Riyaziyyat fənni ilə yaxından məşğul olmağa başladıqdan sonra məndə kompüter sahəsinə böyük maraq yarandı. Bu sahəni dərindən öyrənmək və mütəxəssisi olmaq qərarına gəldim. Hamımıza məlum olduğu kimi, kompüterlər və yüksək texnoloji cihazlar getdikcə həyatımızda daha böyük yer tutur. Və mən də bu yeniliklərlə ayaqlaşmaq, bu sahəni ölkəmizdə inkişaf etdirmək məqsədilə təhsilimi bu istiqamətdə davam etdirməyi seçdim.

*- Seçdiyiniz ixtisas sahəsi ölkəmiz üçün nə dərəcədə prioritetdir?*

- Bütün digər ölkələr kimi, Azərbaycanda da başda xidmət sahələri olmaq üzrə bir çox sahədə kompüter sistemlərinin rolu artır. Ölkəmiz də bu sahədəki trendlərlə ayaqlaşır və innovativ addımlar atır. Son dövrdə bu sahəyə ayrılan diqqət də artıb və gələcəkdə də önəmli sahələrdən biri olacağı şübhəsizdir. Süni intellekt və ağıllı sistemlər hazırda ölkəmizdə ən populyar istiqamətlərdir.

*- Hazırda dərslərdə daha çox hansı formata - məsafədən və ya hibrid modelə üstünlük verilir?*

- Bəzi fənlər istisna olmaqla, dərslərimiz əsasən ənənəvi formada davam edir. Dərslərin interaktiv təşkil olunması üçün hər növ onlayn resurslardan və vasitələrdən istifadə olunur və bu ənənəvi resurslara nisbətən üstünlük təşkil edir.

*- KAIST-də əcnəbi tələbələrə münasibət necədir? Universitetdə diqqətinizi ən çox nələr çəkdi?*

- Koreyada əcnəbilərə münasibət, ümumilikdə çox yaxşıdır. Xüsusilə, KAIST-də dünyanın müxtəlif ölkələrindən çox sayda tələbə təhsil alır və onların rahat yaşaması, təhsil alması üçün universitet tərəfindən hər bir şərait təmin olunur. Burada müxtəlif regionlar və dövlətlərdən olan tələbələr öz ölkələrinin cəmiyyətlərini yaradırlar. Və universitet müxtəlif ölkələri təmsil edən, ali məktəbin ictimai həyatında böyük rol oynayan bu cəmiyyətlərin öz üzvləri arasında və digər ölkələrin cəmiyyətləri ilə əlaqələrin güclənməsi üçün dəstək verir.

*- Olimpiada qalibi kimi dünyanın nüfuzlu ali məktəblərindən birinin tələbəsisiniz. Uğurlarınızın sirrini necə izah edərdiniz?*

- Olimpiada qalibi olmaq və dünya üzrə yüksək reytinqli universitetlərə qəbul olmanın sirri çox və davamlı çalışmaqdır. Xüsusilə riyaziyyat fənni üzrə olimpiadalarda nailiyyət əldə etmək üçün hədəfli, istəkli və yorulmadan çalışmaq lazımdır, çünki bu fənn xüsusən də öz çətinliyi ilə seçilir. Bu nailiyyətləri əldə etməyimdə orta məktəb rəhbərliyi və olimpiada müəllimlərim Elsevər Vəliyev, Nazim Kərimov və İsmət Ağayev əvəzsiz rol oynayıblar.

*- Sizcə, olimpiadalara hazırlıq hansı yaşdan başlanmalıdır? Bu barədə şagirdlərə nə kimi tövsiyələriniz var?*

- Ətrafımda olan bütün şagirdlərə riyaziyyatı və olimpiadaları sevdirməyə çalışıram. Məsləhətim odur ki, hansı fənni və istiqaməti seçmələrindən asılı olmayaraq yorulmadan və ruhdan düşmədən çalışsınlar. Olimpiada işinin təşkilinə gəldikdə isə onu deyə bilərəm ki, bir çox ölkələrin uğurlu təcrübəsindən də göründüyü kimi, olimpiada hazırlıqlarının mümkün qədər kiçik yaşlardan başlanılması böyük miqyaslı uğurların əldə olunması şansını artırır.

*- Gələcək planlarınız barədə nə deyə bilərsiniz?*

- Qarşıdakı məqsədlərim KAIST-də təhsilimi bitirdikdan sonra xarici ölkələrin nüfuzlu universitetlərinin birində magistr təhsili alıb, daha sonra əldə etdiyim bilikləri və təcrübəni ölkəmizdə tətbiq etməkdir.

**Oruc MUSTAFAYEV**

# NDU Avropa universitetləri ilə səmərəli əməkdaşlıq edir

## Avropa İttifaqının ölkəmizdəki nümayəndəliyinin rəhbəri NDU-da olub

Ali təhsil ocağının Beynəlxalq münasibətlər və hüquq fakültəsində keçirilən görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayıb, bu qədər geniş tərkibdə diplomatik heyəti burada qarşılamaqdan məmnunluq hissini ifadə edib. Rektor bu il 55 yaşı tamam olan ali təhsil ocağının beynəlxalq əlaqələrdə qazandığı uğurları diqqətə çatdırıb.





Qeyd edilib ki, ali təhsil ocağı beynəlxalq əməkdaşlıqda Avropa universitetləri ilə əlaqələrə xüsusilə üstünlük verir. Vurğulanıb ki, bu gün görüşdə iştirak edən diplomatik nümayəndəliklərin əksəriyyəti Naxçıvan Dövlət Universitetində bir neçə dəfə olub, tələbələr üçün mühazirə deyiblər. Elbrus İsayev ERASMUS layihəsi çərçivəsində ali təhsil ocağının Avropa İttifaqına üzv olan ölkə universitetləri ilə apardığı beynəlxalq əməkdaşlıqdan bəhs edib. Diqqətə çatdırılıb ki, bu layihə çərçivəsində Naxçıvan Dövlət Universitetinin professor-müəllim heyəti Avropa ölkələrində müxtəlif təlimlərdə iştirak edib və təcrübə əldə edib.

Almaniya dövləti ilə olan əlaqələrdə tibb təhsilinin təkmilləşdirilməsi və peşəkar təcrübənin əldə olunması məsələlərinin durduğunu deyən rektor universitet müəllimlərinin TEMPUS, Erasmus+Nizami layihəsi çərçivəsində Almaniya universitetlərində təlimlər keçdiyini qeyd edib. Fransız dilinin tədrisi ilə bağlı Fransa dövləti ilə səmərəli əməkdaşlıqdan söz açılıb. Rektor ERASMUS+NİZAMİ layihəsi çərçivəsində İsveç, MUMENA layihəsi çərçivəsində Niderland, AESOP layihəsi çərçivəsində Polşa, ERASMUS HUMERIA proqramı çərçivəsində Estoniya, TEMPUS layihəsi çərçivəsində Belçika, TEMPUS MUMENA, TEMPUS CURDEUS layihələri çərçivəsində İtaliya, Latviya, Litva ölkələrinin universitetləri ilə aparılan beynəlxalq əməkdaşlıqların tarixinə nəzər salıb.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri səfir Petr Mixalko Naxçıvan Dövlət Universitetində olmaqdan şad olduğunu ifadə edib. İnsan kapitalı istənilən cəmiyyətin təməlini və əsas sütununu təşkil edir deyən səfir insanların bilik və bacarıqlarının artırılmasının cəmiyyətin inkişafına mühüm töhfə verdiyini qeyd edib. Diplomat Azərbaycan ilə Avropa İttifaqı arasında təhsil sahəsində qazanılan uğurlardan bəhs edib. Bildirilib ki, bu göstərici bu il ən yüksək nəticə ilə yadda qalıb. Səfir Azərbaycan universitetlərinin ERASMUS layihəsi çərçivəsində Avropa İttifaqı ilə üzv olan ölkələr arasında beynəlxalq əməkdaşlıqlarından söz açaraq qrant layihələrində qazanılan uğurları diqqətə çatdırıb. O, eyni zamanda Naxçıvan Dövlət Universiteti ilə təhsil sahəsində perspektivləri müzakirə edib və gələcək əməkdaşlıq məsələləri barədə danışıb.

Qeyd edək ki, görüşdə Almaniya, Fransa, Niderland, Polşa, İsveç, Belçika, Çexiya, Finlandiya, Slovakiya, İtaliya, Rumıniya, Xorvatiya, Estoniya, Latviya, Litva respublikalarının Azərbaycandakı səfirləri iştirak ediblər.

**Səadət ƏLİYEVA**

# ADMİU V Beynəlxalq Teatr festivalında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) nümayəndə heyəti "QİTİS-ustad dərsi" MDB ölkələrinin V Beynəlxalq Teatr festivalında iştirak etmək üçün Moskva şəhərinə ezam olunub. Rusiya Dövlət Teatr İnstitutunun (QİTİS) 7-14 noyabr tarixlərində keçirdiyi "QİTİS-ustad dərsi" festivalında ADMİU-nun Teatr sənəti fakültəsinin dekanı Böyükxanım Talıbova, Dram teatrı və kino aktyoru kafedrasının müəllimi Ruslan İsmayılov, səs rejissoru Səbinə Rzayeva, eləcə də Teatr sənəti fakültəsinin I, III və IV kurs tələbələri iştirak edirlər.

Rusiya, Qazaxıstan, Belarus, Özbəkistan, Qırğızıstan və Ermənistanın teatr məktəblərinin iştirak etdiyi festivalda ADMİU-nun kollektivi ölkəmizi Ruslan İsmayılovun quruluş verdiyi "Jorj Danden, yaxud aldadılmış ər" tamaşası ilə təmsil edir. Jan Batist Molyerin pyesi əsasında hazırlanmış tamaşada ADMİU-nun Teatr sənəti fakültəsinin tələbələri Fərid Hüseynov, Amil Məhərrəmov, Hüseyn Muradzadə, İbrahim Poraşov, Məmməd Rəfiyev, Samir Əliyev, Sertap Salmanlı, Əsmər Əlixanova və Fidan Ağaverdiyeva çıxış edirlər.

Tədris teatrının səhnəsində nümayiş olunan "Jorj Danden, yaxud aldadılmış ər" tamaşasında münsiflər heyəti, festival iştirakçıları, Moskvanın teatr ictimaiyyəti ilə yanaşı, Azərbaycanın Rusiyadakı səfirliyinin nümayəndələri də iştirak edib.

Festival çərçivəsində tələbələr üçün "Aktyor sənəti", "Səhnə danışığı", "Səhnə hərəkəti" fənləri üzrə ustad dərsləri və Moskva Bədaye Teatrının muzeyinə, Stanislavski muzeyinə ekskursiyalar təşkil ediləcək. Bununla yanaşı, professor-müəllim heyətinin təcrübə mübadiləsi baş tutacaq.